Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 34 (8057) ÇƏRŞƏNBƏ AXŞAMI, 12 fevral 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



◆ Zəlzələ bölgəsindən reportaj



# "Xilaskarımız İLHAM ƏLİYEV bu dəfə də harayımıza çatdı"

## Prezidentin tapşırığına uyğun olaraq Şamaxıda qəzalı mənzillərin sökülüb yenidən tikilməsi prosesinə başlanılıb

**Şimal bölgəsində baş vermiş təbii fəlakət Şamaxı rayonunda da fəsadlar törədib, bir neçə ev qəzalı vəziyyətə düşüb, bəzilərinin isə tavanında, divarlarında müxtəlif ölçülü çatlar əmələ gəlib.**

Prezident İlham Əliyevin göstərişindən dərhal sonra evləri qəzalı durumda olan sakinlər müvəqqəti sığınacaqlarda yerləşdirilib və Fövqəladə Hallar Nazirliyi tərəfindən yaradılan xüsusi komissiyanın rəyinə əsasən belə evlərin söküntü işlərinə başlanılıb.



"Təşfişə düşmüşdük. Amma belə bir gərgin vaxtda Prezident İlham Əliyevin Şamaxıya gələrək bizə dəstək olması, təskinlik verməsi həqiqətən şəxsən məndə ruh yüksəkliyi yaratdı. Cənab Prezidenti görəndə elə qürurlandım ki... Dayağımız, xilaskarımız İlham Əliyev bu dəfə də harayımıza çatdı. Dövlət başçısı bizə təsəlli verərək dedi ki, narahat olmayın, tapşırıq vermişəm, tez bir zamanda eviniz tikiləcək. Ölkənin birinci şəxsinin dilindən bu sözləri eşitmək bizdə bir əminlik hissi yaratdı. Axı, dəfələrlə şahidi olmuşuq ki, Azərbaycan Prezidenti harada təbii fəlakət, qəzalar baş verən kimi özünü ora yetirib vətəndaşların yanında olur, onlara dəstək verir, problemlərini həll edir. Bir daha əmin oldum ki, İlham Əliyev ən böyük dayağımızdır. Tanrı Prezidentimizi, onun xoşniyyətli, mərhəmətli xanımı Mehriban Əliyevanı qorusun!"

Ölkə rəhbərinin verdiyi tapşırıqların icra prosesinə şahidlik etmək və sakinlərlə görüşüb durumları ilə maraqlanmaq üçün Şamaxıya yollandıq.

### FHN çevik fəaliyyətdədir

Hava dumanlı-çiskinli, bir qədər də yağmurlu olmasına baxmayaraq, işlər davam edirdi. Fövqəladə Hallar Nazirliyi tərəfindən yaradılan xüsusi komissiyanın rəhbəri Kamran Əliyevin müşayiəti ilə öncə rayon mərkəzində tam qəzalı duruma düşən mənzillərə baş çəkirik.

Ardı 3-cü səh.







Rene Van der LİNDEN,

*Avropa Şurası Parlament Assambleyasının fəxri sədri:*

## "Azərbaycan sabit ölkə kimi regionda çox mühüm dövlətdir"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının fəxri sədri, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Niderland arasında kənd təsərrüfatı, bərpa olunan enerji, nəqliyyat, logistika və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparıldı, Azərbaycanda yaradılan nəqliyyat infrastrukturunun, xüsusilə Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanının logistika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi baxımından önəmi vurğulandı.

Söhbət zamanı Azərbaycan-Avropa əməkdaşlığına toxunuldu, Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olundu.

Rene Van der Linden Azərbaycanın sabit bir ölkə kimi regionda çox mühüm bir dövlət olmasının əhəmiyyətini qeyd etdi.

Görüşdə, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə xüsusi qeyd olundu, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Bölgələrin sosial-iqtisadi yüksəliş mərhələsinin başlanmasından 15 il ötür

## Davamlı və sabit regional inkişafın möhkəm təməli

İnkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, iqtisadiyyatın sabitliyini qorumaq üçün regional inkişafda tarazlılığın, tarixi məşğulluq ənənələrinin qorunub saxlanılması vacib şərtlərdəndir.

Son 15 ildə hökumətin iqtisadi siyasətində regional inkişaf məsələlərinə xüsusi diqqətin yetirilməsi, bölgələrin tərəqqisinə yönəlmiş dövlət proqramlarının, fərman və sərəncamların yüksək dinamizmlə həyata keçirilməsi məhz bu reallığa əsaslanır. Bu həm də onunla şərtlənir ki, milli iqtisadiyyatın daha da inkişaf etdirilməsi istiqamətində qarşıda duran vəzifələrin yerinə yetirilməsi regionların inkişafının sürətləndirilməsini, habelə sosial-iqtisadi problemlərin həllində sahibkarlığın rolunun artırılmasını, regionlarda müasir infrastrukturun yaradılmasını tələb edir. Son 15 ildə məhz regionların sosial-iqtisadi inkişafına göstərilən yüksək diqqət və qayğının nəticəsi olaraq respublikamız ictimai həyatın bütün sahələrində çoxşaxəli islahatlar aparan və investisiya cəlbedicililiyini qoruyan ölkələrdən biri kimi tanınır.

Ardı 5-ci səh.

## Mehriban xanım Əliyeva sağlamlıq imkanları məhdud olan uşaqların tibbi və sosial reabilitasiyasını gücləndirir

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fevralın 11-də Bakının Nərimanov rayonundakı Uşaq Psixonevroloji Mərkəzində olub.



AZƏRTAC xəbər verir ki, dəfələrlə bu müəssisəyə gələn Mehriban xanım Əliyeva tibbi bərpa və təlim-tərbiyə prosesləri ilə yaxından maraqlanıb, mövcud problemlərin həllinə dair tapşırıqlar verib. Bu gün də Mehriban Əliyeva burada yaşayan və müalicə olunan, xüsusi təhsilə yiyələnən uşaqlar üçün yaradılan şəraitlə maraqlanıb.

Mərkəzin baş həkimi İradə Musayeva Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verdi ki, hazırda müəssisədə körpəlikdən yetkinlik yaşına qədər 103 uşağa tibbi xidmət göstərilir. Burada uşaqların yaşayışı, müalicəsi, xüsusi təhsilə yiyələnmələri üçün hər cür şərait yaradılıb. Heydər Əliyev Fondunun dəstəyi ilə 2009-cu ildə inşa edilən bu tibb ocağında psixoloq, aromaterapiya, okulist, psixonevroloq, nevropatoloq, loqoped, pediatr, lor, ultrasəs müayinəsi, fizioterapiya otaqları fəaliyyət göstərir. Mərkəzdə autizm, uşaq serebral iflici və formaları, əqli gerilik və ləngimələr, onun təzahürlərindən əziyyət çəkən uşaqlar müalicə olunurlar. Onların müalicəsi isə kompleks şəklində, yəni həkim və pedaqoji müalicə daxil olmaqla aparılır. Mərkəzdə bu sahədə dünyada tətbiq olunan müasir proqramlardan istifadə edilir. Burada ən müasir tibb və diaqnostik cihazlardan, reabilitasiya avadanlığından istifadə olunaraq sağlamlıq imkanları məhdud uşaqlara ən yüksək səviyyədə tibbi və bərpa xidməti göstərilir. Bunun üçün mərkəzdə hər cür şərait yaradılıb. Uşaqların müalicəsi, təlim-tərbiyəsi ilə peşəkar tibbi, pedaqoji və texniki heyət məşğul olur.

Birinci vitse-prezident Mehriban Əliyeva uşaqlarla söhbət etdi.

Doqquz yaşlı Ömərlə birgə rəsm çəkən birinci xanım Mehriban Əliyeva onun bacarıqlı olduğunu dedi. Heydər Əliyev Fondunun prezidenti uşaqların müalicəsi üçün tətbiq edilən prosedurları izlədi, müalicə zamanı istifadə olunan üsullarla maraqlandı. Mehriban xanım Əliyeva xüsusi qayğıya ehtiyacı olan 6 yaşlı Nasimin də istək və arzularını dinlədi, oyun vasitəsilə onun suallarını cavablandırdı. Tibb müəssisəsinin digər balaca pasiyenti Abdullanın müalicəsi isə filtrasiya olunan musiqinin xüsusi qulaqcıqlarla dinlənilməsinə əsasən beyinə impulsların ötürülməsi ilə aparılır.

Müalicənin bu üsulu ilə maraqlanan Birinci vitse-prezidentə məlumat verildi ki, cari ildən həmin müalicədə tətbiq edilən yeniliklərdən biri də Azərbaycan klassik musiqisinin filtrasiya olunaraq istifadə edilməsidir.

Ardı 2-ci səh.




## "Formula-1"in ən möhtəşəm təşkilatçılıq modeli

### Bakı daha 5 il dünyanın sürət paytaxtı olacaq

**"Formula-1" yarışlarında yüksək təşkilatçılıqla nümunə göstərən Azərbaycan daha 3 il, yəni 2023-cü ilədək dünyanın ən güclü pilotlarını qarşılayacaq.**




Bakı builki yarış da daxil olmaqla, daha 5 il planetin sürət paytaxtı olacaq. Sözsüz ki, belə nüfuzlu yarışların ölkəmizə həvalə edilməsi Azərbaycanın dünyada və Avropada idman ölkəsi kimi tanınmasından irəli gəlir.

Bu gün Azərbaycanda idmanın inkişafına geniş prizmadan yanaşılır və bunun üçün kompleks tədbirlər görülür. Bunun nəticəsi olaraq ölkəmizdə keçirilən nüfuzlu yarışlar silsilə xarakter daşıyır.

Aprelin 26-28-də dünyanın diqqəti yenə də Bakıya yönələcək. Paytaxtımız planetin bir nömrəli avtomobil yarışına 4-cü dəfə evsahibliyi edəcək. Azərbaycan Qran-prisində ən məşhur komandalar və pilotlar 6 kilometr məsafədən ibarət 51 dövrəlik mərhələnin qalibi uğrunda yarışacaqlar. Bu mübarizə isə, sözsüz ki, sürət həvəskarlarının böyük marağına səbəb olacaq.

### Unikal Bakı treki

"Formula-1" yarışlarının 2019-cu il mövsümü 21 mərhələdən ibarət olacaq. Azərbaycan yarışların 4-cü mərhələsinə evsahibliyi edəcək. Mövsümün ilk yarışı martın 15-də Avstraliyada başlayıb, son yarışı isə noyabrın 29-da Abu Dabidə tamamlanacaq.

Uzunluğu 6 kilometrdən bir qədər artıq olan Bakı Şəhər Halqası trekin uzunluğuna görə dünyada ikincidir. Unikal xüsusiyyətlərə sahib Bakı Şəhər Halqası elə təşkil olunub ki, izləyənlər yarış zamanı UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olan İçərişəhər Tarixi-Memarlıq Qoruğunu, şəhərin müasir göydələnlərini və Xəzərin sahilboyu hissəsini özündə birləşdirən Bakının ecazkar simasını görəcəklər.

Ardı 6-cı səh.

# Mehriban xanım Əliyeva sağlamlıq imkanları məhdud olan uşaqların tibbi və sosial reabilitasiyasını gücləndirir





*Əvvəli 1-ci səh.*

Ölkəmizdə sağlamlıq imkanları məhdud olan uşaqların tibbi və sosial reabilitasiyasının gücləndirilməsi istiqamətində mühüm addımlar atılır. Dövlət sağlamlıq imkanları məhdud uşaqların çoxsaylı sosial proqramlara, o cümlədən reabilitasiya, pulsuz istirahət və texniki-bərpa təminat proqramlarına cəlb olunmasını həyata keçirir. Mərkəzdə yaradılan şərait də bunu bir daha təsdiq edir.

Xüsusi qayğıya ehtiyacı olan balacalar Mehriban Əliyeva ilə söhbət edərək bacarıqlarını nümayiş etdirdilər. Uşaqlar Heydər Əliyev Fondunun prezidentinə sevimli oyunlarından, oxuduqları mahnılardan danışdılar.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya müəssisənin həyətində inşa edilən akt zalı haqqında da məlumat verildi.

Mərkəzdə müalicə və təhsil alan uşaqlara Heydər Əliyev Fondunun hədiyyələri təqdim edildi.

Birinci vitse-prezident tibb ocağının fəaliyyətinə uğurlar arzuladı.

# Birinci vitse-prezident valideyn himayəsindən məhrum olan uşaqlara daim diqqətlə yanaşır





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva fevralın 11-də Bakının Nəsimi rayonundakı 1 nömrəli körpələr evində olub.

AZƏRTAC xəbər verir ki, körpələr evinin baş həkimi əvəzi Simuzər Topçubaşova Birinci vitse-prezidentə məlumat verib. Bildirilib ki, hazırda burada 3 yaşadək 13 uşaq var.



Birinci vitse-prezident Mehriban Əliyeva valideyn himayəsindən məhrum olan uşaqlara daim diqqətlə yanaşır, onların gələcəkdə fiziki və mənəvi cəhətdən sağlam, dünyagörüşlü, bilikli, savadlı yetişməsi üçün mühüm layihələrə imza atır. Heydər Əliyev Fondunun prezidentinin Nəsimi rayonundakı körpələr evini növbəti dəfə ziyarət etməsi Mehriban xanım Əliyevanın buranın sakinlərinə nə dərəcədə həssaslıqla yanaşdığını, onlarla mütəmadi olaraq maraqlandığını bir daha nümayiş etdirir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətində yeni körpələr evi, uşaq bağçalarının inşası, mövcud olanların isə yenidən qurulması əsas yer tutur. Bütün bunlar sübut edir ki, fond gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətə mühüm töhfələr verir. Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum olan uşaqların sosial məsələlərinin həlli, sağlamlığının qorunması, bu həssas qrupa daxil olanların vətənpərvər, savadlı şəxsiyyət kimi yetişməsi istiqamətində indiyədək bir çox vacib layihələr icra edib.

Qeyd edək ki, 1930-cu ildə tikilən bu bina uzun illər təmir edilmədiyinə görə yararsız hala düşmüşdü. Heydər Əliyev Fondunun təşəbbüsü ilə körpələr evində ilk dəfə 2005-ci ildə, daha sonra 2014-cü ildə əsaslı təmir və yenidənqurma işləri aparılıb. 2015-ci il mayın 10-da fondun prezidenti Mehriban Əliyevanın iştirakı ilə körpələr evinin açılışı olub. Binadakı yataq, tibbi müayinə, laboratoriya, fiziki tərbiyə otaqları zəruri avadanlıq və inventarla təchiz edilib.

Körpələr evinin sakinlərinə Heydər Əliyev Fondunun hədiyyələri təqdim edildi.

# Heydər Əliyev Fondu Azərbaycanın gələcəyi olan uşaqlara yüksək qayğı göstərir







Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fevralın 11-də Bakının Nəsimi rayonundakı 268 nömrəli xüsusi məktəbdə də olub, uşaqlarla görüşüb, şagirdlərin təhsili ilə maraqlanıb.

AZƏRTAC xəbər verir ki, məktəbin direktoru Seyfəddin Mustafayev Birinci vitse-prezidentə məlumat verdi.





Bildirildi ki, təhsil ocağı 2017-ci il sentyabrın 11-də əsaslı təmirdən sonra Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Qeyd olundu ki, məktəbin 23 sinif otağı var. Təhsil müəssisəsinin bütün otaqları zəruri əyani tədris vəsaitləri ilə təchiz olunub. Burada həmçinin informatika otağı və gimnastika zalı da şagirdlərin ixtiyarına verilib. Təhsil ocağında əqli və fiziki cəhətdən geri qalmış, psixi inkişafında ləngiməsi olan 900 şagird təhsil alır. Onlardan 220-nə məktəbdə, qalanlarına isə evlərində fərdi qaydada dərs keçirilir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili ilə 242 müəllim məşğul olur. Onlar daun sindromlu, autizm, ümumtəhsil proqramını mənimsəyə bilməyən və əqli inkişaf geriliyi diaqnozu olan uşaqlara təlim keçirlər. Məktəbdə Azərbaycan və rus bölmələri fəaliyyət göstərir. Burada uşaqlar gündə 2 dəfə qidalanırlar.

Qeyd edək ki, Azərbaycanın gələcəyi olan uşaqlara yüksək qayğı göstərən Heydər Əliyev Fondu onların intellektual inkişafı, sağlam vətəndaşlar kimi boya-başa çatmaları üçün mühüm tədbirlər həyata keçirir. Fond xüsusi qayğıya ehtiyacı olan uşaqları da hər zaman diqqət mərkəzində saxlayır, müxtəlif aksiyalar reallaşdırmaqla onlara sevinc bəxş edir. Bu dəfə də uşaqlara Heydər Əliyev Fondunun hədiyyələri təqdim edildi. Fondun prezidenti Mehriban Əliyeva xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldığı bu müəssisəyə dəfələrlə baş çəkib, burada yaradılan şəraitlə maraqlanıb.

Birinci vitse-prezident Mehriban Əliyeva məktəbin musiqi sinfində şagirdlərin ifasını dinlədi.

## El-Salvador Respublikasının yeni seçilmiş Prezidenti zati-aliləri cənab Nayib Bukeleyə

Hörmətli cənab Bukele!

El-Salvador Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə El-Salvador arasında əlaqələrin inkişafı və genişlənməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 fevral 2019-cu il*

## Akademik Həmid Araslının 110 illiyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin fevral ayında görkəmli ədəbiyyatşünas, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Həmid Məhəmmədtağı oğlu Araslının anadan olmasının 110 illiyi tamam olur.

Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı sahəsində xüsusi mövqeyə malik nüfuzlu mütəxəssis və dərin erudisiyalı alim kimi geniş şöhrət qazanan akademik Həmid Araslı çoxsaylı araşdırmaları ilə respublikada ədəbiyyatşünaslığın inkişafına dəyərli töhfələr vermişdir. Azərbaycan ədəbiyyatı tarixinin sistemləşdirilməsi və dolğun mənzərəsinin yaradılması onun mühüm elmi nailiyyətlərindəndir. Həmid Araslı folklorumuzun tədqiqini həmişə diqqət mərkəzində saxlamış, "Kitabi-Dədə Qorqud" abidəsinin müxtəlif nəşrlərinin gerçəkləşdirilməsinə, dahi Nizami, Nəsimi və Füzuli irsinin öyrənilməsinə böyük əmək sərf etmiş, anadilli ədəbiyyatın tanınmış nümayəndələrinin əsərlərinin şərqşünaslığın nailiyyətləri əsasında əhatəli şərhlərlə mükəmməl elmi-tənqidi mətnini hazırlamışdır. Məhsuldar elmi yaradıcılığını pedaqoji fəaliyyətlə uzun illər boyu uğurlu şəkildə əlaqələndirən alim, eyni zamanda, ölkənin mədəni-ictimai həyatında yaxından iştirak etmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq ədəbi-bədii fikir tariximizin tədqiqi, təbliği və yüksəkixtisaslı kadrların hazırlanması işində təqdirəlayiq xidmətlərini nəzərə alaraq akademik Həmid Araslının anadan olmasının 110-cu ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram.**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə akademik Həmid Araslının 110 illiyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 fevral 2019-cu il*

## Goranboy rayonunun Qızılhacılı-Goranboy-Goran-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Otuz iki min nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən Qızılhacılı-Goranboy-Goran-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 21,3 milyon (iyirmi bir milyon üç yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 fevral 2019-cu il*

## "Sosial Tədqiqatlar Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Sosial Tədqiqatlar Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanının 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. Sosial Tədqiqatlar Mərkəzi (bundan sonra - Mərkəz) ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir;

2.2. Mərkəzə ümumi rəhbərliyi və nəzarəti üç üzvdən ibarət İdarə Heyəti həyata keçirir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 fevral 2019-cu il*

## Z.M.Orucun Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Zahid Məhərrəm oğlu Oruc Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri təyin edilsin.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 fevral 2019-cu il*

## Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularına ali hərbi rütbə verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aşağıdakı hərbi qulluqçularına general-mayor ali hərbi rütbəsi verilsin:

polkovnik Şahvələd İsmayıl oğlu Əliyevə
polkovnik Yusif Həsən oğlu Mirzəyevə.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 fevral 2019-cu il*

## Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini və qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Tağıyev Elmar Əli oğlu - polkovnik-leytenant

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Babazadə Əjdər Yəhya oğlu - polkovnik-leytenant
Əhmədov Elşad Təşkilat oğlu - polkovnik-leytenant
Məmmədov Bəxtiyar İbrahim oğlu - polkovnik-leytenant
Nəbiyev Əfran Xanəli oğlu - polkovnik-leytenant
Əliyev Vüsal Akif oğlu - mayor
Həsənov Nicat Zəfər oğlu - mayor
Əsədullayev Vilayət Fətulla oğlu - kapitan
Sadıqova Ülviyyə Məhərrəm qızı - ədliyyə baş leytenantı

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 fevral 2019-cu il*

## 2 saylı Sumqayıt şəhər xəstəxanasının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2 saylı Sumqayıt şəhər xəstəxanasının əsaslı təmiri və zəruri tibbi avadanlıqlarla təchiz edilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu sərəncamın 1-ci hissəsində göstərilən işlərin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 fevral 2019-cu il*

## Xocalı soyqırımının 27-ci ildönümünün keçirilməsinə dair tədbirlər planı təsdiq edilib

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə "Xocalı soyqırımının iyirmi yeddinci ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib.

AZƏRTAC xəbər verir ki, tədbirlər planında Bakının Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələrin önünə əklil qoyulması mərasimlərinin keçirilməsi, ictimaiyyət nümayəndələri tərəfindən Şəhidlər xiyabanının ziyarət edilməsi, Azərbaycanın xarici ölkələrdəki səfirliklərində, konsulluqlarında və diaspor təşkilatlarında soyqırımı ilə bağlı tədbirlərin təşkili, xarici və yerli kütləvi informasiya vasitələri, o cümlədən teleradio kanallarında qanlı qırğını əks etdirən materialların yayılması və internet şəbəkəsində mütəmadi olaraq yenilənməsi nəzərdə tutulub.

Bundan başqa, ölkəmizdə fəaliyyət göstərən dini konfessiya və qurumların iştirakı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan anım tədbirləri təşkil ediləcək, idarə və təşkilatlarda, təhsil və mədəniyyət müəssisələrində xatirə gecələri, foto-rəsm sərgiləri, şahidlərlə görüşlər keçiriləcək, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəyə həsr edilən sənədli və bədii filmlər nümayiş olunacaq.

Xocalılıların müvəqqəti məskunlaşdıqları şəhər və rayonlarda (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Goranboy, Bərdə, Sabirabad, Göyçay, Zaqatala, Oğuz, Balakən) dövlət qurumları rəhbərlərinin, Milli Məclisin deputatlarının və ziyalıların şəhid ailələri ilə görüşləri təşkil ediləcək.

Fevralın 26-da təhsil müəssisələrində ilk dərslər Xocalı soyqırımına həsr olunacaq. Həmin gün saat 17.00-da bütün ölkə ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək. Xocalı soyqırımı günü ilə əlaqədar respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində Azərbaycanın Dövlət bayraqları endiriləcək.

## "Səthlərin nanostrukturlaşdırılması" monoqrafiyası çapdan çıxıb




Azərbaycan alimləri - Milli Aviasiya Akademiyasının rektoru akademik Arif Paşayev və Azərbaycan Milli Aviasiya Akademiyasının nəqliyyat mexanikası kafedrasının müdiri, Azərbaycan Mühəndislik Akademiyasının vitse-prezidenti, texnika elmləri doktoru, professor Əhəd Canəhmədovun həmmüəllifləri olduqları "Səthlərin nanostrukturlaşdırılması" monoqrafiyası nəfis tərtibatda nəşr olunub.

AZƏRTAC xəbər verir ki, əsər dörd bölümdən və ümumilikdə 320 səhifədən ibarətdir. Monoqrafiyanın elmi redaktoru Beynəlxalq Mühəndislik Akademiyasının prezidenti, SSRİ və Rusiya Dövlət mükafatları laureatı akademik Boris Qusevdir.

Kitabda səth qatlarının nanostrukturlaşdırma prinsipləri və örtüklərin çəkilməsi məsələləri əksini tapıb. Həmçinin nanotexnologiya yanaşmalarının həyata keçirilməsinin bəzi nümunələrinə baxılıb və onların təcrübədə istifadəsinin üstünlükləri göstərilib. Materialların səth qatlarının nanostrukturlaşdırma yolu ilə möhkəmləndirilməsinin yeni metodları, nanostrukturlu örtüklərin çəkilməsi, submikrokristallik strukturun daxili sərhədlərin bölünməsinin formalaşmasına baxılıb.

Metalların səthində nazik pərdələrin artmasının modelləşdirilməsi, fraktal metod yanaşmaları inkişaf etdirilib, büzmənin kinetikası təhlil edilib və nazik pərdələrin artmasının ədədi modelləşdirməsi göstərilir.

Kitab bərk cismin mexanikası və plastiklik və möhkəmlik fizikası, fiziki materialşünaslıq sahəsində çalışan elmi-texniki mütəxəssislər üçün nəzərdə tutulub, həmçinin müəllimlər, aspirantlar və ali təhsil müəssisələrinin yuxarı kurs tələbələri üçün də faydalıdır.

**◆ Zəlzələ bölgəsindən reportaj**

# "Xilaskarımız İLHAM ƏLİYEV bu dəfə də harayımıza çatdı"

*Əvvəli 1-ci səh.*




Şahidlik etdiyimiz ilk mənzərə maraqlı təəssürat yaradır. Şamaxıda baş verən zəlzələ hündürmərtəbəli yaşayış binaları və hotellərə heç bir ziyan vurmayıb. Dağıntılar, çatlar yalnız həyət evlərində baş verib.

Həmsöhbətim deyir ki, fevralın 5-də gecə saatlarında təbii fəlakət baş verəndən dərhal sonra ölkə rəhbərliyinin göstərişi ilə Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunlarının, Xüsusi Riskli Xilasetmə Xidmətinin, Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin və Şimal-qərb Regional Mərkəzinin 118 nəfərlik şəxsi heyəti, 15 texnikası bölgəyə cəlb olunub. Bununla yanaşı, Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyinin nümayəndələri və könüllüləri dağıntılar baş verən yerlərdə sakinlərlə görüşüblər. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın göstərişinə əsasən, hər bir sakinin evində olan nümayəndələr mövcud vəziyyət barədə məlumat toplayaraq müvafiq strukturlarla birgə iş aparıblar.



### 1484 müraciət, 375 mənzilə baxış, 41 qəzalı ev

Kamran Əliyevin sözlərinə görə, FHN-in xüsusi komissiyası Şamaxı, İsmayıllı və Ağsu rayon icra hakimiyyətlərinin fövqəladə hallar komissiyaları ilə birgə işləyirlər. Hazırda 12 qrup Şamaxıda, 2 qrup İsmayıllıda, 2 qrup isə Ağsuda çalışır.

Komissiyaların əməkdaşları birlikdə zəlzələ nəticəsində qəzanın baş verdiyi və ya şikayət olunan yerlərə, vətəndaşlara baş çəkib ziyan dəymiş binaların dayanıqlılığını və vəziyyətini araşdırırlar. Araşdırmanın nəticəsində müvafiq qərar qəbul olunur.

Ümumilikdə bu günə qədər komissiyaya 1484 müraciət daxil olub. Bu müraciətlər əsasında 375 mənzilə baxış keçirilib. Onlardan 41 ev qəzalı vəziyyətdədir, yəni sökülməsi vacibdir. 135 mənzildə bərpa-bərkidilmə prosesi, 112 mənzildə isə təmirə ehtiyac var. 87 mənzil isə qənaətbəxş hesab edilib.

Hər gün müraciətlərin sayı demək olar ki, artır. Komissiya üzvləri müraciətlər əsasında bütün mənzillərə baxış keçirirlər.

### Ən qısa müddətdə mənzillər tikilib sahiblərinə təhvil veriləcək

Hələlik tam qəzalı vəziyyətə düşən evlər əsasən Şamaxının Salman Mümtaz, Vidadi Məmmədov, Səttar Bəhlulzadə, Hacı Məmmədov küçələrində müəyyənləşib. FHN-nin Mülkü Müdafiə Qoşunlarının canlı qüvvəsi və xüsusi texnikaları söküntü prosesinə cəlb edilib.

Komissiyanın rəbhəri deyir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən görülən işlərdə heç bir ləngimə yoxdur. Qış fəsli olsa da, hava şəraiti işləmək üçün əlverişlidir: "Artıq hər bir qəzalı evdə söküntü işlərinə başlanılıb. Söküntü başa çatan kimi yeni mənzillərin tikintisinə başlanılacaq. Ən qısa müddətdə mənzillər tikilib sahiblərinə təhvil veriləcək".

### "Prezidenti görəndə elə qürurlandım ki..."

Vidadi Məmmədov küçəsində qəzalı vəziyyətə düşən 7 nömrəli evdəki söküntü prosesindən çəkiliş aparakən ev sahibəsi Mailə Quliyeva da məhəlləyə təşrif buyurdu. İllərlə yaşadığı mənzilin sökülmə prosesinə tamaşa edən xanımın çöhrəsini sanki kədər bürümüşdü.

Özümüzü təqdim edib öncə hal-əhvalını sorduq. Ömrünün ən xoş günlərini bu mənzildə keçirdiyini söyləyən 61 yaşlı Mailə xanım deyir ki, bu evdə 3 qız böyüdüb ağ duvağda gəlin köçürüb. Qayğılı-qayğısız günlər yaşayıb bu mənzildə. Zəlzələ baş verən gün isə 3 nəvəsi onun yanında olub:

- Nəvələrimlə bərabər yuxulayırdım. Birdən hiss etdim ki, ev tərpənir. Zəlzələ idi. Tez uşaqları götürüb stolun altına girdim. Yan otağın divarları tamam uçub töküldü. İşıqlar söndü və hər yer zülmət qaranlıq oldu. Qonşular həyətə axışdı. Səs eşidən kimi qışqırıb kömək istədim. Uşaqları yorğana bürüyüb bayıra çıxdıq. Allah bizi qorudu".

Səhəri gün komissiya üzvləri evə baxış keçirib sökülməli olduğu barədə rəy veriblər. Özləri isə sığınacağa yerləşdiriliblər. Evdəki bütün əşyalar, avadanlıqlar lazımi qaydada daşınıb:

- İcra hakimiyyətinin nümayəndələri əlimizi bir şeyə vurmağa qoymadılar. Hər şeyi özləri səliqə ilə yığıb daşıtdırdılar. Amma çox həyəcanlı idik. Təşfişə düşmüşdük. Amma belə bir gərgin vaxtda Prezident İlham Əliyevin Şamaxıya gələrək bizə dəstək olması, təskinlik verməsi həqiqətən şəxsən məndə ruh yüksəkliyi yaratdı. Cənab Prezidenti görəndə elə qürurlandım ki... Dayağımız, xilaskarımız İlham Əliyev bu dəfə də harayımıza çatdı.

Dövlət başçısı bizə təsəlli verərək dedi ki, narahat olmayın, tapşırıq vermişəm, tez bir zamanda eviniz tikiləcək. Ölkənin birinci şəxsinin dilindən bu sözləri eşitmək bizdə bir əminlik hissi yaratdı. Axı, dəfələrlə şahidi olmuşuq ki, Azərbaycan Prezidenti harada təbii fəlakət, qəzalar baş verən kimi özünü ora yetirib vətəndaşların yanında olur, onlara dəstək verir, problemlərini həll edir. Bir daha əmin oldum ki, İlham Əliyev ən böyük dayağımızdır. Tanrı Prezidentimizi, onun xoşniyyətli, mərhəmətli xanımı Mehriban Əliyevanı qorusun! Hər ikisi qayğıkeş, təəssübkeşdilər. Biz də hər zaman Prezidentimizin dəstəkçisiyik.

Mailə xanımın fikirləri bir daha təsdiq edir ki, hər bir addımını vətəndaşın mənafeyinə uyğun atan Azərbaycan Prezidenti xalqına, xalq isə öz liderinə inanır.

Mənzilin söküntü prosesi davam edir. Biz isə Mailə xanımla tez bir zamanda yeni mənzilində görüşmək ümidi ilə sağollaşıb, zəlzələ baş verən an möcüzə sayəsində sağ qalan həsənovlar ailəsinin müvəqqəti məskunlaşdığı mənzilə yollanırıq...

*(Ardı var)*

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***





# Minimum əməkhaqqının artırılması əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində növbəti mühüm addımdır

Fevralın 8-də Prezident İlham Əliyev minimum aylıq əməkhaqqının artırılması və "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3545 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə sərəncam imzalayıb. Sərəncamda deyilir ki, minimum aylıq əməkhaqqının məbləği 2019-cu il martın 1-dən 180 manat müəyyən edilsin.



Nazirlər Kabinetinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərini bir ay müddətində bu sərəncamın 1-ci hissəsinə uyğunlaşdırmaq, Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bu sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində Azərbaycan Prezidentinə təqdim etmək, bu sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

Dövlət başçısı cənab İlham Əliyevin bu addımını zəruri edən əsas səbəb odur ki, manatın dəyər itirdiyi və onun səbəb olduğu ikirəqəmli inflyasiyanın baş verməsi nəticəsində 2014-cü ildən indiyədək yaşayşın dəyəri 50 faizədək artıb. Məsələn, 2014-cü ilin yekunlarına görə, rəsmi təsdiqlənən yaşayış minimumunun dəyəri 125 manat idisə, hazırda bu rəqəm 180 manatdır, yəni 55 manat artım var.

Minimum əməkhaqqının bu qədər artırılması dövlətimizin xalqa qayğısının ifadəsidir. Minimum əməkhaqqının artımı birbaşa olaraq 600 minədək insanı əhatə edəcək. Onlardan dövlət sektorunda işləyən 450 min nəfərin əməkhaqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əməkhaqqında isə 25 faiz artım olacaq. Minimum əməkhaqqının artırılması ilə bağlı dövlət büdcəsindən illik 400 milyon manat ayrılacaq. 2019-cu il üzrə isə 335 milyon manata qədər əlavə vəsait yönəldiləcək. Çünki bu, ilin 10 ayını əhatə edəcək. Demək lazımdır ki, minimum əməkhaqqının 50 manat artırılması böyük bir addımdır.

Minimum əməkhaqqının 40 faizə yaxın artırılması ölkə prezidentinin əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasının daim diqqət mərkəzində olduğunun bariz nümunəsidir. Xüsusilə qeyd olunmalıdır ki, minimum əməkhaqqının bu cür çoxaldılması MDB ölkələrinin heç birində müşahidə olunmur. O da nəzərə alınmalıdır ki, Azərbaycan Prezidentinin qərarı ilə minimum əməkhaqqının məbləği parlament tərəfindən bu yaxınlarda təsdiq olunmuş yaşayış minimumla bərabərləşmiş, ehtiyac meyarı göstəricisini isə 26 faiz üstələmişdir. Beləliklə, minimum əməkhaqqı göstəricisinə görə ölkəmiz MDB-yə daxil olan dövlətlər arasında 7-ci yeri tutmuşdusa, hazırda bir neçə ölkəni qabaqlayaraq 4-5-ci yerdə qərarlaşmışdır. Bu gün minimum əməkhaqqının orta əməkhaqqında payına nisbətdə ölkəmiz MDB məkanında ön sıralardadır. Bu qədər yüksək maaş artımı dünya dövlətlərində çox nadir hallarda olur. Qürurverici haldır ki, Prezident İlham Əliyev bu cür addımları hər il atır.

Artım dövlət sektorunda işləyən 450 min nəfəri əhatə etdiyi üçün, nəinki maaşı 180 manata qədər olan insanlara təsir edəcək, ümumiyyətlə, dövlət büdcəsindən maliyyələşən müəssisələrdə vahid tarif cədvəli üzrə işləyən bütün şəxsləri əhatə edəcək. Çünki bu cədvəl 19 pillədən ibarət əməyin ödənişi sistemidir və onun birinci pilləsi artıq 180 manat müəyyən ediləndə növbəti pillələr artımla gedir. İkinci pillə 180 manatdan 2,5-3 faiz daha çox, üçüncü pillə isə bundan da çox təşkil edir.

Minimum əməkhaqqının 180 manat müəyyən edilməsi nəinki az maaş alan insanlara, eləcə də vahid cədvəl üzrə işləyən 450 min nəfərə də şamil ediləcək. Orta hesabla onların əməkhaqqısı 30 faiz artacaq. Özəl sektorda olanlar üçün də zəncirvari müsbət effekt özünü göstərəcək. Bu səbəbdən həmin sektor üzrə maaş artımının əhatə edəcəyi şəxslərin sayı üzrə ilkin rəqəm kimi 150 min olsa da, bu göstəricinin daha yüksək olacağı gözlənilir. Hazırda ölkə üzrə 150 minədək işçi 180 manatdan az əmək haqqı alanlardır. Sərəncama əsasən, dövlət sektorunda olduğu kimi, özəl sektorda da əsas iş yeri və tam iş günü üzrə işləyənlərin əməkhaqlarının minimum məbləği martın 1-dən 180 manatdan az müəyyən oluna bilməz.

Martın 1-dən özəl sektor üzrə bütün işəgötürənlər əmək müqavilələrində müvafiq dəyişikliklər edərək minimum əməkhaqqını 180 manata çatdırmalı və bu dəyişikliyi əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemində qeydiyyatdan keçirib rəsmiləşdirməlidirlər. Bu prosesə qeyd olunan elektron sistemi vasitəsilə ciddi nəzarət ediləcək. Minimum əməkhaqqını 180 manat səviyyəsinə çatdırmayanlar bununla əmək qanunvericiliyini pozmuş olacaqlar ki, belə olan halda da aidiyyəti məsuliyyət tədbirləri görüləcək.

Prezident İlham Əliyevin imzaladığı sərəncamın bir müsbət cəhəti də qadınlarla kişilərin əməkhaqları arasında olan fərqin azaldılmasına xidmət etməsidir. Çünki sərəncamın əhatə dairəsi məhz vahid tarif cədvəli üzrə işləyənlərdir ki, onların da böyük əksəriyyətini qadınlar təşkil edir. Vahid cədvəl üzrə tarif vəzifə maaşları artdığına görə qadınların əməkhaqqında artım olacaq. Bu gün az maaşla işləyənlərin bir çoxu qadınlardır. Bu sərəncam qadınların əməkhaqqının və gəlirlərinin artmasına xüsusi təsir edəcək.

Minimum əməkhaqqının artırılması ölkə iqtisadiyyatında çalışan insanların əməkhaqlarının artırılmasına və pensiya fonduna ödənişlərin çoxalmasına gətirib çıxaracaq ki, bu da öz növbəsində əmək pensiyalarının əhəmiyyətli dərəcədə artması deməkdir.

Ölkə rəhbərinin bu qərarını Milli Məclisdə ratifikasiya edilmiş və minimum əməkhaqqı ilə bağlı öhdəlikləri ehtiva edən Dəyişdirilmiş Avropa Sosial Xartiyasının, eləcə də Beynəlxalq Əmək Təşkilatının 131 saylı Konvensiyasının yaxın illərdə tam həcmdə yerinə yetirilməsi istiqamətində atılan mühüm addım kimi qiymətləndirmək olar. Hesablamalar göstərir ki, minimum əməkhaqqının respublika üzrə orta aylıq əməkhaqqına nisbəti ötən il 30 faiz təşkil etmişdirsə, hazırda bu göstərici birdənbirə 10 faizdən çox artaraq 41 faizə bərabər olmuşdur. Heç şübhə yoxdur ki, yaxın gələcəkdə ölkə prezidenti Avropa Sosial Xartiyasında qeyd olunan beynəlxalq normanın yerinə yetirilməsi üçün müvafiq qərarlar verəcək.

Əməkhaqqı dövlətin əhalinin həyat səviyyəsi siyasətinin fundamental kateqoriyasıdır və eyni zamanda əməyin ödənilməsinin səviyyəsi bu siyasətdən əhəmiyyətli dərəcədə asılıdır. Nəzərə almaq lazımdır ki, qeyd olunan siyasətin işlənilməsi və həyata keçirilməsi həmkarlar ittifaqlarının bilavasitə iştirakı ilə baş tutur.

Layiqli əməkhaqqı uğrunda mübarizə həmkarlar ittifaqlarının fəaliyyətində prioritet yerlərdən birini tutur, gələcəkdə də AHİK-in və onun üzv təşkilatlarının işində real əməkhaqqının əhəmiyyətli dərəcədə artırılması, onun vaxtında ödənilməsi, bu sahədə təbəqələşmənin azaldılması və ayrı-seçkiliyə yol verilməməsi məsələləri mühüm yer tutacaqdır. Minimum əməkhaqqının yaşayış minimumu səviyyəsindən aşağı olmamaqla beynəlxalq normalara uyğun təyin edilməsi istiqamətində səylər davam etdiriləcəkdir.

Cənab Prezidentin bu sərəncamı son illərdə apardığı sosial siyasətin tərkib hissəsi olaraq əhaliyə çox böyük töhfəsi oldu.

***Səttar MÖHBALIYEV,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri,***
***Milli Məclisin deputatı***

# Azərbaycan və Belarus Ədliyyə nazirlikləri səmərəli əməkdaşlıq edir

Azərbaycan-Belarus dostluq və səmərəli əməkdaşlıq münasibətlərində hüquqi əlaqələr xüsusi yer tutur. Belə ki, iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair mühüm sazişlər imzalanaraq uğurla icra olunur, nümayəndə heyətlərinin mübadiləsi aparılır, birgə tədbirlər keçirilir. Ötən ilin noyabrında Belarusun ədliyyə naziri ölkəmizdə səfərdə olaraq Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfransda iştirak edib, faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Əməkdaşlığın davamı olaraq respublikamızın ədliyyə naziri Fikrət Məmmədov belaruslu həmkarının dəvətinə əsasən, Belarus Ədliyyə Nazirliyinin 100 illik yubileyinə həsr olunan beynəlxalq konfransda iştirak etmək üçün Minskdə səfərdə olub.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Rusiya, Tacikistan və Özbəkistanın ədliyyə orqanları rəhbərlərinin də iştirak etdikləri "Hüquqi dövlətin formalaşdırılmasında ədliyyə orqanlarının rolu" mövzusunda konfransın açılışında Belarusun ədliyyə naziri Oleq Slijevski, Belarus Prezidenti Administrasiyasının rəhbərliyi, Konstitusiya Məhkəməsinin sədri çıxış edib, konfransın hüquqi dövlətdə ədliyyə sisteminin inkişafına və yeni çağırışlara həsr olunduğunu bildirib, müsbət təcrübələrin mübadiləsi baxımından əhəmiyyətini vurğulayıblar.

Geniş məruzə ilə çıxış edən O.Slijevski Ədliyyə Nazirliyinin 100 illik tarixindən və inkişaf yolundan danışıb, həyata keçirilən islahatlar və yeniliklər barədə ətraflı məlumat verib, müxtəlif dövlətlərlə, o cümlədən Azərbaycanla səmərəli hüquqi əməkdaşlığı, ölkəmizin "ASAN xidmət" və digər müsbət təcrübəsindən bəhrələndiklərini qeyd edib.

Tədbirdə ölkəmizin ədliyyə naziri F.Məmmədov çıxışında yubiley münasibətilə təbriklərini ifadə edib, Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsində Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun müstəsna rolunu vurğulayıb, ədliyyə orqanlarının da uğurla əməkdaşlıq etdiyini bildirib. Nazir, həmçinin ədliyyə və məhkəmə sahəsində aparılan və beynəlxalq aləmdə təqdir olunan islahatlar və innovasiyalar, o cümlədən elektron sistemlərin və xidmətlərin tətbiqini qeyd edib, Azərbaycan Prezidentinin 2017-ci il 10 fevral tarixli sərəncamına əsasən, cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər, o cümlədən azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında Probasiya xidmətinin fəaliyyəti, elektron nəzarət vasitələrinin tətbiqi barədə məlumat verib.

Çıxışda xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin acı nəticələri, torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğalı və bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktı iştirakçıların diqqətinə çatdırılıb.

Konfransda digər məruzələr dinlənilib, müzakirələr, faydalı fikir və təcrübə mübadiləsi aparılıb. Çıxış edənlər Belarus Ədliyyə Nazirliyinin səlahiyyət dairəsinə aid olan vəkillik və notariat sahəsində Azərbaycanın mütərəqqi islahatlarını təqdir ediblər.

Tədbir çərçivəsində Azərbaycan və Belarus ədliyyə nazirlərinin ikitərəfli görüşü olub. Görüşdə ölkələrimiz arasında əməkdaşlıq münasibətlərinin yüksək səviyyəsi vurğulanıb, qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi üçün geniş perspektivlərin olduğu bildirilib.

Respublikamıza səfərləri zamanı hərtərəfli tərəqqinin və intensiv islahatların aparılmasının şahidi olduğunu söyləyən Belarusun ədliyyə naziri Azərbaycanın böyük uğurlar əldə etdiyini, hüquqi sahədə nailiyyətlərimizi ölkəsində tətbiq etmək niyyətində olduğunu vurğulayıb.

Konfrans zamanı ölkəmizdə həyata keçirilən islahatlara və nailiyyətlərə böyük maraq göstərilərək yerli KİV nümayəndələri nazir F.Məmmədovdan müsahibə alıblar.

Yubiley tədbirləri çərçivəsində Belarus Milli Akademik Böyük Opera və Balet Teatrında nazirliyin 100 illiyi münasibətilə təntənəli iclas keçirilib. Tədbirdə Belarus Prezidentinin ədliyyə orqanlarına təbrik məktubu səsləndirilib, təltifetmə mərasimi olub, yubileyə həsr olunmuş xüsusi film nümayiş etdirilib, mədəni proqram və ziyafət təşkil olunub.

Tədbirlərdə, həmçinin Azərbaycanın Vəkillər Kollegiyasının rəhbərliyi və ölkəmizin Belarusdakı səfiri Lətif Qəndilov iştirak edib.

# Sərgidə 31 Azərbaycan şirkəti öz məhsullarını vahid ölkə stendində təqdim edir

Moskvadakı "Eksposentr" Mərkəzi Sərgi Kompleksində "Prodexpo 2019" sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, XXVI beynəlxalq qida məhsulları, içkilər və onların istehsalı üçün istifadə edilən xammal sərgisinin baş sponsoru bu il də Azərbaycan olub. Sərgidə təqdim edilən "Made in Azerbaijan" milli stendində geniş çeşidli məhsullar nümayiş olunur.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu sərginin açılış mərasimində çıxış edərək bildirib ki, builki sərgidə ölkəmizin 31 şirkəti iştirak edir: "Sərgi iştirakçı ölkələr üçün Rusiya bazarına çıxmaq, faydalı müqavilələr bağlamaq, ölkələrimiz arasında əmtəə mübadiləsini artırmaq və xalqlarımızın rifahını yüksəltmək üçün olduqca yaxşı fürsətdir".

Azərbaycan şirkətlərinin təmsil olunduğu ekspozisiyada təzə kənd təsərrüfatı məhsulları, konservlər, mineral sular, müxtəlif alkoqollu və alkoqolsuz içkilər, çay, fındıq, qoz, quru meyvə, qənnadı məmulatları və sair təklif edilir. "Spirtli içkilər. Şərab. Pivə" salonuna gələnlər Azərbaycanın qədim şərabçılıq ənənələri ilə tanış olmaq imkanı qazanır.

# İlham Əliyevin sosial-iqtisadi inkişaf kursu uğurla reallaşır

Ötən 15 ilin qürur doğuran inkişafı müasir Azərbaycanın ən mühüm reallıqlarından biridir. Bu inkişaf isə bütün sahələri əhatə edərək kompleks xarakter daşıyır. Xüsusən iqtisadi və sosial istiqamətlərdə dövlətimizin nailiyyələri misilsizdir. Yanvar ayında keçirilən Nazirlər Kabinetinin iclası, üçüncü regional inkişaf proqramının yekunlarına həsr olunmuş konfrans və Prezident İlham Əliyevin şəhid ailələi ilə görüşü göstərdi ki, sosial-iqtisadi inkişaf kursu uğurla reallaşır, dövlətin və insanların mənafeyinə layiqincə xidmət edir.





## Dövlət öz vətəndaşının qüdrətli dayağıdır

**Bahar MURADOVA,** *Milli Məclis Sədrinin müavini, YAP İdarə Heyətinin üzvü:*

- Bu bir həqiqətdir ki, Azərbaycanda gedən sürətli inkişaf dövlət quruculuğunun bütün sahələrinə, o cümlədən sosial sferaya ciddi sirayət edərək bir çox sosial proqram və layihələrdə real əksini tapmaqdadır. Ölkəmizin iqtisadi qüdrətinin artması vətəndaşların sosial rifahının yüksəldilməsinə yönəlmiş layihələrin uğurla həyata keçirilməsinə böyük zəmin yaratmışdır. Xüsusi vurğulamaq lazımdır ki, dövlətimizin həyata keçirdiyi geniş məzmunlu sosial siyasətin əsas xarakterik cəhətlərindən biri də dövlət qayğısının əhalinin bütün təbəqələrini əhatə etməsidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən və həyata keçirilən dövlət siyasəti nəticəsində əldə olunan möhtəşəm nailiyyətlər ölkəmizin daha da inkişaf etməsi üçün yeni perspektivlər açmışdır. Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsini sosial siyasət təşkil edir. Ölkəmizin davamlı inkişafından, iqtisadi potensialının güclənməsindən bütün respublika boyu sosial infrastruktur yaradılması, insanların həyat şəraitinin daha da yaxşılaşdırılması, maddi təminatlarının möhkəmləndirilməsi məqsədilə səmərəli şəkildə istifadə olunur.

Ötən 15 ildə bu sahədə həyata keçirilən islahatlar və məqsədyönlü tədbirlər əhalinin etibarlı sosial müdafiə sisteminin formalaşmasını təmin etmişdir. Əhalinin sağlamlığının qorunması, təhsilin səviyyəsinin yüksəldilməsi, səmərəli məşğulluğunun təmin edilməsi və s. istiqamətlərdə sistemli tədbirlər bu gün də davam etdirilir və bu sahəyə yönəldilən vəsaitlərin həcmi ildən-ilə artırılır. Həyata keçirilən sosialyönümlü siyasətin nəticəsi olaraq əhalinin nominal gəlirləri 8,6 dəfə artıb, yoxsulluq səviyyəsi 5,1 faizədək, işsizlik səviyyəsi 5 faizədək azalıb. Son 15 ildə 3000-dən çox məktəbdə, 500-dən çox məktəbəqədər təhsil müəssisəsində və 650-yə yaxın səhiyyə müəssisəsində tikinti, əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib.

Bu günlərdə Prezident İlham Əliyevin sərəncamı ilə minimum əməkhaqqının artırılması bir daha göstərdi ki, Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində insan amili dayanır. Bu ölkədə yüzminlərlə işçinin aylıq maaşının artmasına imkan verəcək.

Əhalinin daha həssas qruplarına, o cümlədən əlillərə, müharibə veteranlarına, aztəminatlı vətəndaşlara, qaçqın və məcburi köçkünlərə dövlət qayğısının nəticəsi olaraq onların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir. Bütün zəruri infrastruktura malik olan 102 müasir qəsəbə salınaraq 300 mindən çox qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır. Ünvanlı sosial yardımların verilməsindən tutmuş yoxsulluğun azaldılmasına qədər bütün sosial müdafiə tədbirləri müvəffəqiyyətlə həyata keçirilir.

Dövlət müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş dəyərli soydaşlarımızın xatirəsinin əbədiləşdirilməsi ilə bərabər, onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi üçün aparılan ardıcıl işlər ölkə rəhbərinin şəhidlərin ruhuna sonsuz ehtiram hissindən, ailələrinə böyük qayğısından qaynaqlanır. Ötən müddət ərzində bu kateqoriyadan olan vətəndaşlara 6654 mənzil, 6144 avtomobil, o cümlədən 2018-ci ildə şəhid ailələrinə və müharibə əlillərinə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil verilib. Cari ildə həmin vətəndaşlara 800-dən çox mənzilin verilməsi nəzərdə tutulur. Şəhid ailələrinə və müharibə əlillərinə, Milli qəhrəmanlara verilən Prezident təqaüdünün də məbləği ötən dövrdə mütəmadi artırılıb, bu qəbildən olan insanların uşaqlarına aylıq sosial müavinətin verilməsi təmin olunub. Bu sahədə həyata keçirilən ardıcıl tədbirlər ictimaiyyət tərəfindən hər zaman böyük rəğbət və məmnunluqla qarşılanır və təsadüfi deyil ki, 2018-ci ildə keçirilən prezident seçkilərindəki qələbəsindən sonra cənab İlham Əliyevin imzaladığı ilk fərman da bu sahəyə şamil olunmuşdur. "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il 19 aprel tarixli fərmandan ötən müddətdə 3100 şəhid hərbi qulluqçunun vərəsələrinə birdəfəlik ödəmə həyata keçirilmiş, 6444 nəfər üçünsə bu iş davam etdirilir. Prezident İlham Əliyevin bu ilin yanvar ayının 28-də imzaladığı digər fərmanla isə 1997-ci ilin avqust ayının 2-dək şəhid olmuş əlavə 2725 nəfərin vərəsələrinə də birdəfəlik ödəmə veriləcək. Yeni fərmanla birdəfəlik ödəmənin verilməsi 12268 şəhidin vərəsələrinə şamil olunur.

Şəhid ailələrinə birdəfəlik ödəmənin verilməsini nəzərdə tutan bu fərmanlar onların sosial müdafiəsinin yaxşılaşdırılmasına xidmət edən ən humanist addımlardan biridir. Azərbaycan vətəndaşları Prezidentin bu qərarını ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmış vətən övladlarının xatirəsinə olan ehtiramın, onların ailə üzvlərinə diqqət və qayğının zaman keçdikcə daha da artmasının əyani təsdiqi kimi dəyərləndirir.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın yanvarın 28-də Prezident sarayında şəhid ailələri ilə görüşmələri onlara göstərilən yüksək diqqətin və ehtiramın bariz nümunəsidir.

Bütün bunlar onu göstərir ki, sosial qayğıya ehtiyacı olan insanlarımızla bağlı həyata keçirilən dövlət siyasətinin başlıca qayəsi Azərbaycan vətəndaşlarının daha rahat və təminatlı şəraitdə yaşamalarını təmin etməkdir. Bu siyasət insanlarımızın, xüsusilə də gənclərimizin vətənpərvərlik və dövlətçilik ruhunda böyümələrinə, ölkəmizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün etibarlı qorunmasına əlavə stimul yaratmaqla, dövlətin öz vətəndaşının qüdrətli dayağı olduğuna inamını qətiləşdirir.

## Qürur doğuran inkişaf

**İqbal MƏMMƏDOV,** *Milli Məclisin deputatı:*

- Siyasi, iqtisadi və hərbi böhranların səngiməldiyi çağdaş dövrümüzdə ili yüksək ovqatda və inkişaf göstəriciləri ilə başa vurmaq hər bir dövlətə müyəssər olmur. Tənəzzül, geriləmə və sosial rifahın daha da pisləşməsi dünyanın bir çox ölkələrinin üzləşdiyi reallıqlardır. Bu gerçəkliyi çox uzaqlarda yox, elə Azərbaycana yaxın coğrafiyada yerləşən ölkələrdə də görmək mümkündür.

Azərbaycan dünya birliyinin üzvüdür, iqtisadiyyatımız dünya iqtisadiyyatına inteqrasiya edib. Və fəxarət hissi ilə deməliyik ki, respublikamız geridə qoyduğumuz 2018-ci ili də inkişaf göstəriciləri ilə başa vurdu. Prezident İlham Əliyevin uzaqgörən siyasi və iqtisadi kursu ötən ildə də olduqca böyük və möhtəşəm uğurların əldə edilməsini şərtləndirdi. Bəzi faktlara nəzər yetirməklə Azərbaycanın ötənilki siyasi və iqtisadi nailiyyətlərinin miqyasını və sanbalını görə bilərik.

2018-ci il ölkəmizin ictimai-siyasi həyatında yubileylər və seçki ili kimi də qaldı. Belə ki, xalqımız mühüm əlamətdar tarixlərin və hadisələrin - ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünü, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyini, Milli Qurtuluş Gününün 25-ci ildönümünü qeyd etdi. Silahlı Qüvvələrimizin yaranmasının və Bakının işğaldan azad edilməsinin 100-cü ildönümü münasibətilə keçirilən hərbi paradlar ordumuzun və bütövlükdə dövlətimizin qüdrətinin nümayişi oldu. Ötən il Naxçıvandakı Günnüt qələbəsi isə bir daha göstərdi ki, Ali Baş Komandanı İlham Əliyev olan Azərbaycan Ordusu qarşısında dayanan bütün vəzifələri layiqincə yerinə yetirməyə qadirdir.

Təbii ki, ötən ilin ən mühüm siyasi hadisəsi aprelin 11-də keçirilən prezident seçkiləri oldu. Xalqımız, seçicilərimiz bu seçkidə də ən layiqli namizədi dəstəklədilər, cənab İlham Əliyevin ətrafında birləşməklə inkişafın davamlı olmasına, daha qüdrətli Azərbaycana səs verdilər. Xalqımız daxili inamına söykənərək ölkəni əlahiddə inkişaf yoluna çıxarmış siyasətin müəllifinə - cənab İlham Əliyevə səs verməklə ağı qaradan seçməyi bacardığını, ölkənin taleyinə biganə olmadığını göstərdi. Prezident seçkilərinin nəticəsi həm də bir daha təsdiq etdi ki, xalqımız Heydər Əliyev yolunun davamına alternativ görmür.

2018-ci il həm də Prezident İlham Əliyevin müəllifi olduğu möhtəşəm infrastruktur layihələrin icrasının başa çatması ilə əlamətdar oldu. Ötən ilin may ayının sonlarında "Cənub qaz dəhlizi"nin istifadəyə verilməsi göstərdi ki, ulu öndərin əsasını qoyduğu enerji siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və Azərbaycan dövləti istənilən qlobal layihəni həyata keçirməyə qadirdir. Həm də bütün dünya gördü ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan müəyyən etdiyi vəzifələri vaxtında yerinə yetirən, aydın və düşünülmüş strategiyası, dəqiq siyasəti olan dövlətdir.

Bundan bir neçə gün sonra isə "Cənub qaz dəhlizi"nin əsas seqmentlərindən olan TANAP kəmərinin açılışı oldu. Təməli 2015-ci il martın 17-də qoyulan layihə üzrə bütün işlər vaxtında yerinə yetirildi. Eyni zamanda ötən il Türkiyənin İzmir şəhərində "Star" neft emalı zavodunun istifadəyə verilməsi də Azərbaycanın böyük uğurudur. Çünki bu zavod Azərbaycanın, SOCAR-ın sərmayəsi ilə tikilib, ərsəyə gətirildi və buradan əldə olunan gəlirdən həm Azərbaycan, həm də Türkiyə qazanacaq. Ötən il istifadəyə verilən başqa bir möhtəşəm ünvan isə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi oldu. Bir daha təsdiq olundu ki, Azərbaycan ən mürəkkəb infrastruktur layihələrini həyata keçirmək imkanlarına malikdir.

Bu cür infrastruktur layihələrini həyata keçirən Azərbaycanın 2018-ci ildəki iqtisadi nailiyyətləri də təqdirəlayiqdir. Görünən odur ki, bir neçə il öncə Prezident İlham Əliyevin başlatdığı yeni iqtisadi islahatlar öz bəhrəsini verir və ölkəmizdə xüsusən qeyri-neft sektorunda ciddi artım var. Bu islahatlar çərçivəsində həyata keçirilən yeni sosial-iqtisadi inkişaf strategiyası 2018-ci ildə milli iqtisadiyyatımızın bütün sahələrinin davamlı inkişafını təmin edərək müsbət nəticələrin əldə edilməsi ilə müşayiət olunub, makroiqtisadi göstəricilər nəzərəçarpacaq dərəcədə artıb.

Yanvarın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ötən ilin iqtisadi nailiyyətləri ətraflı müzakirə edilib. Dövlət başçısının qeyd etdiyi kimi, 2018-ci il ölkəmiz üçün uğurlu olub, Azərbaycan hərtərəfli və dinamik inkişaf edib. Prezident İlham Əliyevin diqqətə çatdırdığı əsas iqtisadi göstəricilər də ötən ilin inkişaf dövrü olduğunu göstərir. Belə ki, ötən il ümumi daxili məhsul 1,4 faiz, qeyri-neft sektoru 1,8, sənaye istehsalı 1,5, kənd təsərrüfatı isə 4,6 faiz artıb. Valyuta ehtiyatları 45 milyard dollara çatıb, ölkədə 118 min daimi iş yeri açılıb.

Yanvarın 29-da keçirilən "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfrans isə ölkəmizin daha möhtəşəm inkişaf mənzərəsini ortaya qoydu. Belə ki, müşavirə regionların inkişafına dair üçüncü proqramın icrasının başa çatmasına həsr olunsa da, orada səslənən rəqəmlər son 15 ildə ölkəmizin hansı inkişaf yollarından keçdiyini göstərdi. Bu dövrdə ümumi daxili məhsul 3,3 dəfə, sənaye potensialı 2,6 dəfə artıb. Valyuta ehtiyatları 24 dəfə artaraq hazırda 45 milyard dollar təşkil edir. Bu illərdə ölkəyə ümumilikdə 250 milyard dollar sərmayə qoyulub, 100 mindən çox müəssisə yaradılıb, 15 min kilometr avtomobil yolu çəkilib. Əlbəttə, əldə olunan uğurlar sosial sahəyə də mühüm təsir edib. Belə ki, ötən 15 ildə - maaşlar 7, pensiyalar 9 dəfə artıb. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri yaradılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enib. 3 mindən çox məktəb əsaslı təmir edilib və ya yenidən tikilib. 650-yə yaxın tibb müəssisəsi tikilib və yenidən qurulub, 44 olimpiya mərkəzi yaradılıb.

Bütün bu rəqəmlər kifayət qədər sanballıdır və Azərbaycanın ötən 15 illik inkişaf salnaməsinin göstəriciləridir. Lakin cənab Prezidentin dəfələrlə qeyd etdiyi kimi, əldə edilmiş uğurlar bizi arxayınlaşdırmamalıdır. Artıq Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı təsdiq edib. Bununla bağlı imzalanan fərmandan göründüyü kimi, regionların, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində görülmüş işləri növbəti illərdə də davam etdirmək, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, bölgələrdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi qarşıdakı illərdə də prioritet olacaq.

Sözsüz ki, yeni dövlət proqramının hədəfləri də yenidir. Bu isə o deməkdir ki, qarşıda Azərbaycanda keyfiyyətcə yeni, indikindən də fərqli inkişaf tendensiyaları müşahidə olunacaq. Başqa cür də o bilməz. Çünki müəllifi İlham Əliyev olan inkişaf kursu Azərbaycana yalnız və yalnız yüksəliş, dinamik iqtisadi nailiyyətlər və yüksək sosial rifah bəxş edir.

Bir məsələni də qeyd edim ki, Prezident İlham Əliyevin sərəncamı ilə minimum aylıq əməkhaqqının məbləği artırılaraq martın 1-dən 180 manat müəyyən edildi. Bu ölkədə həyata keçirilən uğurlu sosial siyasətin təsdiqi olmaqla yanaşı, həm də iqtisadi inkişafın göstəricisidir. Ölkənin artan iqtisadi gücü ilk növbədə vətəndaşların sosial rifahının gücləndirilməsinə xidmət edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Bölgələrin sosial-iqtisadi yüksəliş mərhələsinin başlanmasından 15 il ötür

# Davamlı və sabit regional inkişafın möhkəm təməli

Əvvəli 1-ci səh.

Dünyanın mötəbər "beyin mərkəzi" sayılan Davos Forumunun 2018-ci il üçün hesabatında Azərbaycanın rəqabət qabiliyyətliliyinə görə 35-ci, "Doing Business" hesabatında 25-ci yerdə qərarlaşması həyata keçirilən islahatların səmərəliliyinin bariz göstəricisidir.

*"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"*nın icrasının yekunları ilə bağlı bir müddət əvvəl Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə keçirilən konfrans respublikamızın dinamik inkişaf yolunda olduğunu bir daha təsdiqləmişdir. Bu konfransda vurğulanmışdır ki, qeyri-neft sektorunun dinamik inkişafı sahəsində əldə olunan nəticələr uğurlu təməlini regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilmiş tədbirlərdən götürür. Dövlət başçısı cənab İlham Əliyev ötən 15 il müddətində sosial ədalət prinsipinin qorunması baxımından respublikanın hər bir bölgəsinin - potensial və imkanlar nəzərə alınmaqla - proporsional inkişafını vacib saymış, bu istiqamətdə sistemli və ardıcıl tədbirlər həyata keçirməyi hökumətin mühüm vəzifələrindən biri kimi müəyyənləşdirmişdir.

Məlumdur ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra iri şəhərlərin daha sürətlə inkişaf etməsi, rayonların və kəndlərin isə tərəqqi prosesindən geridə qalması kimi neqativ tendensiya ilə üzləşmişdi. Paytaxt və digər böyük şəhərlərin, iri yaşayış massivlərinin kənd, rayon və qəsəbələrə nisbətən daha sürətlə inkişaf etməsinə təkcə postsosialist dövlətlərində deyil, ümumilikdə bütün inkişaf etmiş dövlətlərdə rast gəlinir. Dövlət başçısı dəfələrlə bildirmişdir ki, urbanizasiya prosesi - şəhərlərə yüksək axın hazırda bütün dövlətləri qayğılandıran və ciddi fəsadlarla müşayiət olunan qlobal problemdir. Cənab İlham Əliyev 2003-cü ilin prezident seçkiləri ərəfəsində Azərbaycanın, demək olar ki, bütün rayonlarına səfər edərək bölgələrdə yaşayan vətəndaşları maraqlandıran problemlərlə yaxından tanış olmuş, onları qayğılandıran çatışmazlıqların kompleks həllinə ehtiyac olduğunu bildirmişdir.

Problemin miqyasını və Azərbaycan üçün aktuallığını nəzərə alan Azərbaycan Prezidenti cənab İlham Əliyev hələ Nazirlər Kabinetinin 17 noyabr 2003-cü ildə keçirilmiş ilk iclasında regionların tarazlı və davamlı inkişafını hökumətin qarşısında başlıca vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Bu zaman o prinsip də önə çəkilmişdir ki, dövlət hansı iqtisadi-coğrafi zonada yaşamasından asılı olmayaraq, hər bir vətəndaşının sosial-mədəni və intellektual yüksəlişinə çalışmalıdır. Bu, ilk növbədə, cəmiyyətdə sosial ədalət prinsipinin qorunması baxımından vacibdir.

Ölkə rəhbərinin 11 fevral 2004-cü il tarixdə imzaladığı "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" fərman da, ilk növbədə, regionların qeyri-proporsional inkişafının qarşısını almağa xidmət edən təkmil konsepsiya olmuşdur. İnkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, məhsuldar qüvvələrin proporsional yerləşdirilməsi təmin olmadıqda hər hansı inkişafdan söhbət gedə bilməz. İmzalanmasının 15-ci ildönümü tamam olmuş Dövlət Proqramı regional inkişafdakı fərqi aradan qaldırmaq baxımından vacib, əlahiddə əhəmiyyətli sənəd olmuşdur. Proqram regionlarda sahibkarlığın inkişafını sürətləndirməklə, oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi resurslardan kifayət qədər səmərəli istifadə etməklə iqtisadiyyatın dinamik inkişafı, əhalinin məşğulluğunun artırılması, yoxsulluğun səviyyəsinin azaldılması məsələlərini özündə ehtiva edirdi. Bölgələrdə yaşayan vətəndaşların zəruri arzu və istəkləri, eləcə də onları illərdən bəri narahat edən, qayğılandıran sosial problemlərin həlli fərmanda dolğunluğu ilə əksini tapmışdı. Birinci proqram regional inkişafdakı kəskin fərqin aradan qaldırılması, yerlərdə sosial-infrastruktur layihələrinin həyata keçirilməsi, sahibkarlığın inkişafı baxımından vacib, əlahiddə əhəmiyyətli sənəd olmuş, bu mükəmməl konsepsiyanın icra vəziyyəti ilə bağlı hər il hökumətin müşavirələri keçirilmişdir.

Təsadüfi deyildir ki, 2004-2008-ci illər regionların sosial-iqtisadi inkişafında əsaslı dönüş mərhələsi kimi qiymətləndirilir. Bu mərhələdə regionların inkişafında mühüm rolu olan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşası, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin yaradılması kimi mühüm layihələr başa çatdırılmış, Bakı-Tbilisi-Qars dəmiryolunun inşasına başlanmış, Azərbaycan regionun mühüm iqtisadi güc mərkəzinə çevrilmişdir. 2003-2008-ci illərdə həmçinin, Naxçıvan, Gəncə, Lənkəran və Zaqatala şəhərlərində müasir standartlara cavab verən yeni hava limanları tikilmişdir.

Elektrik enerjisi ilə təminatın yaxşılaşdırılması üçün 7-si regionlarda olmaqla, 9 müxtəlif tipli elektrik stansiyasının tikintisi başa çatdırılmışdır. Təbii qazla təchizatın yaxşılaşdırılması sahəsində görülmüş işlərin nəticəsi olaraq 13 illik fasilədən sonra Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi bərpa olunmuş, Lerik, Yardımlı rayonları və Füzuli rayonunun Horadiz şəhəri ilk dəfə, Ağcabədi, Beyləqan rayonları, Ağdam rayonunun Quzanlı qəsəbəsi və digər rayonlar təbii qazla təmin edilmişdir.



Azərbaycan Prezidenti cənab İlham Əliyev 2004-2008-ci illərdə Quba-Xaçmaz, Şəki-Zaqatala, Dağlıq Şirvan, Lənkəran, Aran, Gəncə-Qazax və Yuxarı Qarabağ iqtisadi rayonlarına daxil olan şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə olaraq 17 sərəncam imzalamışdır. Birinci Dövlət Proqramının uğurlu icrası nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin yüksəlməsində mühüm rol oynamışdır.

Dövlət başçısı regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında nəzərdə tutulmamış bir sıra məqsədlərin gerçəkləşdirilməsi üçün 2009-2013-cü illəri əhatə edən yeni proqramın hazırlanmasını da diqqət mərkəzində saxlamışdır. Cənab İlham Əliyev belə bir sənədin hazırlanması zərurəti ilə bağlı demişdir ki, qarşıda duran vacib vəzifələrdən biri məhz Azərbaycanın regionlarında formalaşdırılan infrastrukturun Avropa Birliyi meyarlarına çatdırılmasıdır.

Prezident İlham Əliyevin 14 aprel 2009-cu il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi bu sahədə həyata keçirilən siyasətin davamı olaraq ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaq idi. İkinci Dövlət Proqramı regionların davamlı inkişafı, sosial infrastrukturun yenidən qurulması, milli iqtisadiyyatın neft amilindən asılılığının qeyri-neft sektorunun tərəqqisi hesabına aradan qaldırılması üçün kompleks tədbirlər müəyyənləşdirməklə yanaşı, iş adamlarının fəaliyyəti üçün də yaxşı imkanlar açmışdır.

Ölkə rəhbərinin 2014-cü il 27 fevral tarixli sərəncamı ilə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi regionların inkişafı sahəsində 2004-cü ildən başlanmış tədbirlərin uğurlu davamına təminat yaratmışdır. Dövlət Proqramı ölkədə makroiqtisadi sabitliyin təmin olunması, regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yeni müəssisə və iş yerlərinin yaradılması, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsi, əhalinin rifah halının daha da yaxşılaşdırılması və yoxsulluq səviyyəsinin azaldılması kimi prioritetləri özündə ehtiva etmişdir.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" da ölkədə qeyri-neft sektorunun və regionların inkişafına xidmət etmişdir. Proqramda müəyyənləşdirilmiş məqsədlərə nail olunması üçün regionlarda infrastruktur təminatının, o cümlədən əhalinin kommunal xidmətlərlə təminatının daha da yaxşılaşdırılması təmin edilmişdir. Eyni zamanda, ixracyönümlü və rəqabətədavamlı məhsul istehsalı istiqamətində sahibkarlığın inkişafının sürətləndirilməsi, əhalinin, xüsusilə kənd əhalisinin məşğulluq səviyyəsinin artırılması və yoxsulluğun səviyyəsinin azaldılması kimi mühüm vəzifələr nəzərdə tutulmuşdur.

2014-2018-ci illərdə orta illik inflyasiya tempinin və milli valyutanın məzənnəsinin məqbul səviyyədə saxlanılması; vergi və gömrük dərəcələrinin optimal həddə müəyyənləşdirilməsi; kənd təsərrüfatı məhsulları istehsalçılarının stimullaşdırılması tədbirlərinin davam etdirilməsi; taxıl istehsalının artırılması və rəqabət qabiliyyətinin gücləndirilməsi; istehsalçıların ixrac yönümlü fəaliyyətinin stimullaşdırılması; ümumi daxili məhsulda qeyri-neft sektoru üzrə büdcə gəlirlərinin xüsusi çəkisinin yüksəldilməsi və digər məsələlər diqqət mərkəzində olmuşdur.

Son dərəcə əhatəli, sistemli və məqsədyönlü səciyyə daşıyan dövlət proqramı qazanılmış uğurlu nəticələrin son beş ildə də qorunub saxlanılması və inkişaf etdirilməsi, respublikamızın perspektiv inkişaf hədəflərinin dəqiq müəyyənləşdirilməsi, ümumi potensialın regional inkişaf tədbirlərinə yönəldilməsi baxımından əlahiddə əhəmiyyət kəsb etmişdir. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi Azərbaycanın dinamik inkişafını daha da sürətləndirmiş, regionlara göstərilən diqqət və qayğı hərtərəfli inkişaf və tərəqqi üçün etibarlı zəminə çevrilmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev proqramın yekunları ilə bağlı demişdir: *"Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı proqramlarının qəbul edilməsi mənim 2003-cü ildə prezident seçkiləri ərəfəsində verdiyim vədlərimdən biri idi. O vaxt demişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, ilk növbədə, regionların inkişafı ilə məşğul olacağam, bölgələrdə olan problemlərin həlli işində öz səylərimi əsirgəməyəcəyəm. 2004-cü ilin fevral ayında birinci proqram qəbul olundu və bu gün müzakirə etdiyimiz proqram sayca üçüncüdür.*

*Beləliklə, görülmüş işlər haqqında danışanda əlbəttə ki, biz son 15 il ərzində yerinə yetirilmiş işlərə nəzər salmalıyıq. Bu işlər həm real həyatda, həm rəqəmlərdə, həm də dəyişən, abadlaşan şəhərlərdə özünü göstərir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templərlə inkişaf etmiş, ümumi daxili məhsul 3,3 dəfə artmışdır. Bir daha demək istəyirəm, bu, dünya miqyasında rekord göstəricidir. Sənaye istehsalı 2,6 dəfə artmışdır. İxracımız 4,7 dəfə, valyuta ehtiyatlarımız 24 dəfə artıb və bu gün 45 milyard dollar təşkil edir. Yəni, bu, onu göstərir ki, Azərbaycan regionlarına və eyni zamanda, neft-qaz sektoruna, Bakı şəhərinin inkişafına böyük vəsait qoyulmasına baxmayaraq, biz öz valyuta ehtiyatlarımızı 24 dəfə artıra bilmişik. Bu, bizə imkan verir ki, gələcəyə çox böyük ümidlərlə baxaq. Azərbaycan iqtisadiyyatı bu gün dayanıqlı iqtisadiyyatdır".*



Son 15 ildə inkişaf göstəricilərinə görə dünya miqyasında lider mövqelərini qoruyub saxlamağa müvəffəq olmuş Azərbaycanda həyata keçirilən siyasət bütün çalarları ilə məhz insan amilinin yüksəlişinə xidmət edir. Cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi altında ölkədə işsizlik probleminin həlli, yeni sosial infrastruktur obyektlərinin - təhsil, mədəniyyət, səhiyyə, rabitə müəssisələrinin qısa müddət ərzində tikilərək istifadəyə verilməsi, yeni yolların, su, qaz, elektrik, rabitə xətlərinin çəkilişi son nəticədə Azərbaycan insanının mədəni-intellektual səviyyəsinin yüksəlişinə, mənəvi-əxlaqi dəyərlərin cəmiyyətimizdə əsas meyara çevrilməsinə xidmət göstərir.

Regional inkişaf tədbirləri son 15 ildə Azərbaycanda güclü sahibkarlar sinfinin yaranmasına da yeni təkan vermişdir. Möhtərəm Prezidentin dəfələrlə bəyan etdiyi kimi, bazar iqtisadiyyatı yolunu seçmiş hər bir ölkənin sabit və davamlı inkişafında sahibkarlar sinfinin, özəl sektorun rolu misilsizdir. Xatırlatmaq yerinə düşər ki, hələ 2004-cü ilin 2 fevral tarixində Bakı Biznes Mərkəzində yerli sahibkarlarla görüşən dövlət başçısı onları narahat edən məsələləri diqqətlə dinləmiş, sahibkarları dəstəklədiyini, iş adamlarına gələcəkdə də lazımi köməyi göstərəcəyini bəyan etmişdir. Dövlət rəhbəri inhisarçılıq, sahibkarlara süni maneələrin yaradılması, hüquq mühafizə orqanlarının iş adamlarının fəaliyyətinə müdaxiləsi hallarını pisləmiş, bu münasibət konkret qərarlarla müşayiət olunmuşdur.

Antiinhisar fəaliyyətinin gücləndirilməsi, "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının (2004-2006-cı illər) təsdiqlənməsi, ədliyyə və məhkəmə sistemində aparılan islahatlar, biznes subyektlərinin qeydiyyatı və lisenziya sisteminin sadələşdirilməsi, yerlərdə regional iqtisad məhkəmələrin yaradılması və s. kimi tədbirlər də bunun əyani təcəssümü olmuşdur. Kiçik və orta sahibkarlığın güzəştli kreditlərlə maliyyələşdirilməsi, sahibkarların fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması, özəl sektorda inkişafa mane olan problemlərin həlli istiqamətində mühüm addımlar atılmışdır. Dövlət başçısı iqtisadiyyatın liberallaşdırılması, bazarın inhisardan, haqsız rəqabətdən azad olunması, özəl sektorun dəstəklənməsi, sahibkarlara güzəştli kreditlərin verilməsi sahəsində ciddi addımlar atmış, verdiyi bütün vədlərə sadiqlik nümayiş etdirmişdir.

Son 15 ildə Azərbaycanda sahibkarlıq subyektlərinin dövlət qeydiyyatının sadələşdirilməsi, bu sahədə müasir informasiya kommunikasiyaların mütərəqqi yeniliklərinin tətbiqi istiqamətində kompleks tədbirlər həyata keçirilmiş, "e-xidmətlər"in geniş tətbiqi biznes mühitinin daha da yaxşılaşdırılmasına səbəb olmuşdur.

Xatırlatmaq lazımdır ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin hələ 30 aprel 2007-ci il tarixdə imzaladığı "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" fərman bu istiqamətdə mühüm sənədlərdən olmuşdur. Belə bir fərmanın imzalanması o dövrə qədər çoxpilləli biznesə başlamaq sahəsində mövcud problemlərin həlli, eyni zamanda, süründürməçilik hallarının aradan qaldırılması sahəsində, sözün əsl mənasında, fundamental dəyişikliklərə yol açmışdır. Bu məqsədlə fərmanda vahid kodlaşdırmanın aparılması, biznes strukturlarının "bir pəncərə" - vahid qeydiyyat orqanı tərəfindən qeydə alınması məsələləri əksini tapmışdı. Həmçinin fərmanda biznes strukturlarının fəaliyyəti üçün torpaq ayırmalarının, tikinti, yenidənqurma və bərpa işlərinə icazə verilməsi prosedurlarının sadələşdirilməsi, tikintinin ekspertizadan keçirilməsi sahəsindəki bürokratik əngəllərin aradan qaldırılmasına geniş imkanlar açılması kimi məsələlər əksini tapmışdır.

Ötən illərdə sahibkarlıq subyektlərinin "bir pəncərə" prinsipi üzrə qeydiyyat sisteminin tətbiqi, habelə bu sahədə elektron xidmətlərin genişləndirilməsi sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyatının dinamikasına müsbət təsir etmişdir. Həyata keçirilmiş bu islahatlar hüquqi şəxslərə və fərdi sahibkarlara vergi orqanına getmədən internet vasitəsilə vergi uçotuna dayanma imkanı yaratmışdır. Bu sistemin tətbiqindən sonra Azərbaycanın investisiya cəlbediciliyi əhəmiyyətli dərəcədə yüksəlmiş, sahibkarlığın inkişafı və biznes mühitinin təkmilləşdirilməsi istiqamətində aparılan islahatlar beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir.

Dövlət başçısının 2010-cu il aprelin 13-də imzaladığı "Sahibkarlıq sahəsində aparılan yoxlamaların nizama salınması və istehlakçıların hüquqlarının qorunmasının təmin edilməsinə dair bəzi tədbirlər haqqında" fərmanı sahibkarların fəaliyyətinə qanunsuz müdaxilələrin qarşısının alınması baxımından mühüm addımlardan olmuşdur. Fərman əsasında 2011-ci il mayın 1-də "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə" təsdiq edilmiş və bu sənəddən irəli gələn vəzifələrin icrası Ədliyyə Nazirliyinə həvalə olunmuşdur.

Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid reyestrinin yaradılması bu sahədə dövlət nəzarəti mexanizmlərinin təkmilləşdirilməsinə, yoxlamaların tənzimlənməsi vasitəsilə sahibkarların hüquqlarının qorunmasına, sui-istifadə hallarının qarşısının alınmasına xidmət etmişdir. İlk növbədə, yoxlamaların yalnız müvafiq reyestrdə qeydiyyata alındıqdan sonra həyata keçirilməsinin mümkünlüyü vacib şərt kimi qarşıya qoyulmuşdur.

Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid qaydalarının müəyyənləşdirilməsi və yoxlamaların aparılması zamanı sahibkarların fəaliyyətinə qanunsuz müdaxilələrin qarşısının alınması məqsədilə hələ 2013-cü il 2 iyul tarixində "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və 2014-cü il martın 1-dən qüvvəyə minmişdir. Qanun yoxlayıcı orqanlar tərəfindən sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yerlərə gəlməklə aparılan bütün növ yoxlama tədbirlərinə, o cümlədən araşdırmalar, müayinələr, monitorinqlər, müşahidələr, təftişlər, nəzarətlər, xronometrajlar, reydlər, baxışlar və digər bu cür tədbirlərə şamil edilir.

Dövlət başçısının 2014-cü il 3 mart tarixli "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı da bu sahədə ötən illərdən başlanmış islahatların mütərəqqi davamını təmin etmişdir. Fərman Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması və ən qabaqcıl təcrübələr əsasında təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə geniş imkanlar açmışdır. Fərmanla müəyyənləşdirilmiş vəzifələr aidiyyəti dövlət qurumları ilə birlikdə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla sahibkarlıq sahəsində 8 istiqamət üzrə geniş islahatların aparılmasına imkan yaratmışdır.

Azərbaycan Prezidentinin 19 oktyabr 2015-ci il tarixli "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" fərmanının əhəmiyyəti də xüsusi qeyd olunmalıdır. Sözügedən fərmanla sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan bütün növləri üzrə (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) xüsusi razılıq (lisenziya) verilməsi bilavasitə Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinə həvalə edilmişdir. Nazirlik xüsusi razılıq (lisenziya) verilməsi xidmətinin "ASAN xidmət" mərkəzlərində həyata keçirilməsini təmin edir.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın yekunları ilə bağlı keçirilən konfransda dövlət başçısı cənab İlham Əliyev görülən işlərin davamı olaraq sayca dördüncü regional inkişaf proqramının hazırlandığını diqqətə çatdırmışdır: *"Bütövlükdə isə deməliyəm ki, ilkin hesablamalara görə, regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının icrası üçün ən azı 17 milyard manatdan çox vəsait nəzərdə tutulur. Hesablanıb ki, bunun 4,6 milyard manatı özəl sektor tərəfindən indi icra edilən və hazırlığı gedən layihələrə investisiya şəklində qoyulacaq. Dövlət tərəfindən təxminən 13 milyard manata yaxın kapital qoyuluşu gözlənilir. Ancaq əlbəttə ki, bu, ilkin rəqəmdir. Mən tam əminəm ki, bu rəqəm daha böyük olacaq. Çünki əvvəlki üç proqramın icrası bunu göstərir. Çünki üç proqramın hər biri artıqlaması ilə icra edilmişdir. Əminəm ki, dördüncü proqram da artıqlaması ilə icra ediləcək. Nəzərə almalıyıq ki, indi bizdə investisiya iqlimi daha əlverişlidir. Mən giriş sözümdə qeyd etdim ki, Dünya Bankı "Doing Business" hesabatında Azərbaycanı 25-ci yerə layiq görüb".*

Regional inkişaf tədbirləri çərçivəsində qarşıya qoyulmuş ən başlıca amil insan amilinin bütün sahələrdə ön planda olması, vətəndaşların sosial rifah halının, həyat səviyyəsinin daha da yüksəldilməsi, işsizlik, yoxsulluq probleminin həlli, hüquq və mənafelərinin qorunmasıdır. Son 15 ildə sosial sahədə həyata keçirilmiş tədbirlərin miqyası da həddindən artıq böyükdür. Sadəcə onu demək kifayətdir ki, son illərdə keçmiş ittifaq respublikaları arasında ilk dəfə məhz Azərbaycanda vətəndaşların sovet dövründən banklarda qalmış əmanətlərinin ədalətli şəkildə qaytarılması təmin edilmişdir. Ölkəmizin sosial-iqtisadi inkişafında qazanılmış uğurlar, əldə olunmuş makroiqtisadi sabitlik, Azərbaycan dövlətinin maliyyə imkanlarının artması bu əmanətlərin qaytarılmasına imkan verməklə yanaşı, həm də Azərbaycan Prezidentinin vətəndaşlara yüksək qayğısının real təzahürü olmuşdur.

Hazırda respublikamızda həyata keçirilən sosial siyasətin əsas prioritetlərindən biri bu sahədə inkişaf indekslərini Avropa Sosial Xartiyasının tələblərinə uyğunlaşdırılması, sosial hüquqların etibarlı müdafiəsi mexanizminin formalaşdırılmasıdır. Bu meyarlar dövlət başçısının sərəncamı ilə təsdiq olunmuş "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"nda da öz əksini tapmışdır. Sənəddə qarşıdakı illərdə sosial müdafiə tədbirlərinin əhatəsinin gücləndirilməsi; aztəminatlı ailələrin maddi imkanlarının yaxşılaşmasına yönəlik sosial layihələrin davam etdirilməsi; sosial sistemin təkmilləşdirilməsi məqsədi ilə islahatların həyata keçirilməsi; sosial təminat və pensiya sisteminin daim yenilənən müasir tələblərə uyğunlaşdırılması ilə bağlı prioritetlər müəyyənləşdirilmişdir.

Bütün bunlar təsdiqləyir ki, son 15 ildə inkişaf göstəricilərinə görə dünya miqyasında lider mövqelərini qoruyub saxlamağa müvəffəq olmuş Azərbaycanda həyata keçirilən siyasət bütün çalarları ilə məhz insan amilinin yüksəlişinə xidmət edir. Cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi altında ölkədə işsizlik probleminin həlli, yeni sosial infrastruktur obyektlərinin - təhsil, mədəniyyət, səhiyyə, rabitə müəssisələrinin qısa müddət ərzində tikilərək istifadəyə verilməsi, yeni yolların, su, qaz, elektrik, rabitə xətlərinin çəkilişi son nəticədə Azərbaycan insanının mədəni-intellektual səviyyəsinin yüksəlişinə, mənəvi-əxlaqi dəyərlərin cəmiyyətimizdə əsas meyara çevrilməsinə xidmət göstərir.

Dövlət başçısının son bir ayda qəbul etdiyi qərarlar onun insan və vətəndaş amilinə, eləcə də sosial sifariş meyarına necə yüksək həssaslıqla yanaşdığının əyani göstəricisidir. Qısaca demək kifayətdir ki, möhtərəm Prezidentin müvafiq fərmanı ilə 1997-ci il avqustun 2-dək ərazi bütövlüyümüz uğrunda həlak olmuş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinə sosial müdafiələrinin yaxşılaşdırılması məqsədilə 11 min manat məbləğində birdəfəlik ödəmənin edilməsi, Şamaxı və digər rayonlarda zəlzələ nəticəsində zərər çəkmiş vətəndaşların problemlərinin həlli ilə bağlı operativ tədbirlərin həyata keçirilməsi bunun əyani göstəricisidir. Təkcə onu demək lazımdır ki, bu günlərdə minimum əməkhaqqının 130 manatdan 180 manata - təxminən 50 faizədək artırılması Azərbaycanda həyata keçirilən siyasətin sosialyönümlü mahiyyətini bir daha təsdiqləmişdir. Bu artımla dövlət sektorunda çalışan vətəndaşların məvaciblərinin 30, özəl sektorda çalışan vətəndaşların məvaciblərinin isə 20 faizlik artımı təmin ediləcəkdir. Bu sərəncam ümumilikdə 1 milyondan çox vətəndaşın rifahının yüksəlməsinə təsirini göstərəcəkdir.

Xüsusi vurğulamaq istərdim ki, regional inkişaf tədbirlərinin nəticəsi olaraq bu gün Azərbaycanın ən böyük sənaye mərkəzlərindən olan Sumqayıt şəhəri dinamik inkişaf edir, müasirləşir. Cənab İlham Əliyevin son illərdə dəfələrlə Sumqayıtda olması, şəhərin problemləri, qayğıları, nailiyyətləri ilə yaxından maraqlanması, istehsal və sənaye potensialının inkişaf etdirilməsi ilə bağlı dəyərli tövsiyələrini verməsi də şəhərə yüksək diqqətin bariz təzahürüdür. Ümumilikdə, son illər sosial infrastrukturun müasirləşdirilməsi, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, bu zaman qabaqcıl təcrübənin nəzərə alınması, insanların istirahəti üçün yüksək şəraitin yaradılması şəhər rəhbərliyinin yenilikçi iş üslubunun əyani göstəricisi kimi diqqəti çəkir. Bu kontekstdə Sumqayıtda insan amilini əsas tutan bir sıra qlobal layihələrin uğurla reallaşdırıldığını da xüsusi qeyd etmək lazımdır. Abadlıq-quruculuq tədbirləri çərçivəsində son 4 ildə şəhər ərazisindəki əksər park və meydanların yenidən qurulması əhalinin asudə vaxtının səmərəli təşkili baxımından mühüm əhəmiyyətə malikdir. Nəticədə bu gün Sumqayıt şəhəri istər yaşayış məkanı, istərsə də ərazi-təsərrüfat kompleksi və ictimai iqlim zonası kimi, respublikanın iqtisadi və siyasi həyatında mühüm yer tutur. Şəhərin böyük sənaye potensialına malik olduğu artıq dünya miqyasında qəbul olunur və yüksək dəyərləndirilir.

Şəhərdə sənayenin qeyri-neft sektorunun inkişaf istiqamətlərinin genişləndirilməsi, rəqabətədavamlı sənaye məhsullarının istehsalının dəstəklənməsi və ixracyönümlü istehsal sahələrinin yaradılmasının təşviqi qarşıya qoyulan əsas məqsədlərdəndir. Bununla əlaqədar ixrac potensialının artırılmasında və cəmiyyətin sosial problemlərinin həllində sahibkarlıq institutunun rolunun gücləndirilməsi, iş adamlarının fəaliyyətinin sahə, regional və texnoloji baxımdan strukturunun optimallaşdırılması üçün konkret tədbirlər həyata keçirilir. Nəticə etibarilə Sumqayıtda müxtəlif təyinatlı məhsulların istehsalı ilə məşğul olan müəssisələrin maddi-texniki bazası davamlı olaraq möhkəmləndirilir, müasir tələblərə uyğunlaşdırılır, yeniləri inşa edilir. Son illərdə möhtərəm Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə Cənubi Qafqazda analoqu olmayan Sumqayıt Texnologiyalar Parkı, Sumqayıt Kimya Parkı və digər müəssisələr yaradılmışdır. Bütün bunlar həm də çoxlu sayda yeni iş yerlərinin açılmasına, əhalinin sosial rifahının yaxşılaşmasına səbəb olmuşdur.

*Ötən 15 ilin təhlili deməyə əsas verir ki, ulu öndər Heydər Əliyevin siyasi kursunu inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev hər addımında milli maraq və mənafeləri uca tutur, ölkə vətəndaşlarının arzu və istəyini gerçəkləşdirmək üçün böyük əzmkarlıqla çalışır. Azərbaycan Prezidentinin fəaliyyətinin əsas qayəsi də xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində qurulmuşdur. Əminliklə demək olar ki, Azərbaycan xalqını uğurlu gələcəyə aparan bu siyasət növbəti illərdə də davam etdiriləcək, respublikamız cənab İlham Əliyevin rəhbərliyi altında inkişaf tempini sürətləndirəcək, qabaqcıl dövlətlər arasında layiqli yerini tutacaqdır.*

**Qüdrət KƏRİMOV,**
***"Xəzər" QSC-nin sədri, iqtisad elmləri doktoru***

# İran İslam İnqilabının 40-cı ildönümü münasibətilə Bakıda rəsmi qəbul təşkil edilib

Fevralın 11-də İranın Azərbaycandakı səfirliyi ölkənin milli bayramı - İslam İnqilabının 40-cı ildönümü münasibətilə rəsmi qəbul təşkil edib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və İranın Dövlət himnləri səsləndirilib.

Səfir Cavad Cahangirzadə İranın inqilabdan ötən 40 ildə keçdiyi inkişaf yolundan danışıb, bu müddətdə müxtəlif uğurların qazanıldığını diqqətə çatdırıb. Səfir bildirib ki, İran İslam Respublikası ötən müddətdə regional sabitlik amili kimi çıxış edib.

Ölkələrimiz arasındakı münasibətlərdən danışan diplomat deyib ki, İran ilə Azərbaycan arasındakı dostluq və qardaşlığa əsaslanan əlaqələr gündən-günə inkişaf edir. Dövlət başçılarının səmimi münasibətləri iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi üçün möhkəm dayaq olub. C.Cahangirzadə deyib ki, iki qardaş xalq arasında çoxşaxəli əməkdaşlıqlar, qırılmaz tellər yaratmışıq. Son illər ölkələrimiz arasında qarşılıqlı turist mübadiləsinin artması ölkələrimiz arasındakı dostluğun nəticəsidir.

Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev əlamətdar gün münasibətilə İran xalqını Azərbaycan hökuməti adından təbrik edib. Azərbaycan və İran xalqlarını ortaq mənəvi dəyərlərin birləşdirdiyini deyən nazir qeyd edib ki, ölkələrimiz arasında əlaqələr bu gün ən yüksək səviyyəyə qalxıb. Dövlətlərimizin başçılarının son beş ildə 12 dəfə görüşməsi əlaqələrimizin inkişafına ən yüksək səviyyədə verilən böyük önəmin göstəricisidir.

İkitərəfli əməkdaşlığın möhkəm müqavilə-hüquq bazasının yaradıldığını vurğulayan Ş.Mustafayev bildirib ki, indiyədək 150-dən artıq sənəd, o cümlədən iqtisadi sahədə bir sıra mühüm sənədlər imzalanıb. 2018-ci ildə Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın və Xəzəryanı dövlətlər arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında Sazişin imzalanması ölkələrimiz arasında çoxtərəfli formatda da əməkdaşlığın genişləndiyini göstərir. Əlaqələrin inkişafında Hökumətlərarası Konvensiyanın və parlamentlərarası işçi qruplarının da mühüm rolu var. Cari ilin martında Azərbaycanda keçiriləcək Komissiyanın 13-cü iclası zamanı da səmərəli müzakirələr aparılacaq, yeni razılıqlar əldə ediləcək.

Ticarət əlaqələrinin inkişafından danışan Ş.Mustafayev qeyd edib ki, 2017-ci illə müqayisədə ötən il qarşılıqlı ticarət dövriyyəsi təqribən 74 faiz artıb. Əlaqələrimizin daha da genişlənməsi məqsədilə hər iki ölkənin paytaxtında, eləcə də regionlarında iş adamlarının iştirakı ilə müntəzəm görüşlər, biznes forumlar, sərgilər və digər işgüzar tədbirlər keçirilir. İranın ölkəmizə yatırdığı 3,4 milyard dollar investisiyanın 3,3 milyard dolları neft sektoruna, 120 milyon dolları isə qeyri-neft sektoruna yönəldilib. Azərbaycanda xidmət, rabitə, ticarət, sənaye, tikinti, bank və sığorta, nəqliyyat və digər sahələrdə minə yaxın İran şirkəti fəaliyyət göstərir. Ötən il Neftçala Sənaye Məhəlləsində açılışı həyata keçirilmiş "Xəzər" avtomobil zavodunun uğurlu fəaliyyəti səmərəli investisiya tərəfdaşlığının bariz nümunəsi olmaqla yeni layihələrin həyata keçirilməsinə əlverişli zəmin yaradır.

Nazir vurğulayıb ki, ölkələrimiz arasında əlaqələrin əsas istiqamətlərindən biri də nəqliyyat-tranzit əməkdaşlığıdır. Bu gün böyük əhəmiyyətə malik "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi" layihəsinin reallaşdırılması üçün mühüm addımlar atılır. Azərbaycan bu layihə üzrə öz ərazisində müvafiq infrastrukturun yaradılması işini uğurla tamamlayıb, eyni zamanda, İran ərazisində bu istiqamətdə görülən işlərə dəstək verir.

İki ölkə arasında turizm sahəsində artan əməkdaşlığı xüsusilə qeyd edən nazir bildirib ki, İrandan Azərbaycana səfər etmiş turistlərin sayında dəfələrlə artım müşahidə olunub. "ASAN viza" vasitəsilə viza alan əcnəbilərin sayına görə İran vətəndaşları ön sıralardadır.

Tədbirdə rəsmi şəxslər, Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı səfirləri və ictimaiyyətin nümayəndələri iştirak ediblər.




# "Formula-1"in ən möhtəşəm təşkilatçılıq modeli

## Bakı daha 5 il dünyanın sürət paytaxtı olacaq

*Əvvəli 1-ci səh.*

Şəhər treki pilotlardan xüsusi dəqiqlik tələb edən İçərişəhərətrafı dar yoxuş hissəsi, inanılmaz sürət əldə etməyə imkan verən 2,2 kilometr dənizkənarı hamar hissəsi və s. bir sıra özəllikləri ilə yarışı canlı olaraq tribunalardan və ya televiziya qarşısında izləyən "F1" azarkeşləri üçün əsrarəngiz bir şouya çevriləcək.

Trekdə yarış avtomobillərinin hərəkəti saat əqrəbinin əks istiqamətində olacaq. Trekin ən geniş yeri 13 metrdir, ən dar hissəsi trekin İçərişəhər ətrafında olan bölmələrində, o cümlədən 7-ci və 8-ci döngələrdə 7.6 metr təşkil edəcək. Start və finiş xətti Azadlıq meydanında olacaq.

### Bir nömrəli avtomobil yarışı

"Formula -1" üzrə dünya çempionatı bir nəfərlik, açıq təkərli avtomobillərin yarışıdır. Yüksək statusa malik bu yarışlarda sürücülər pilot, avtomobillər isə bolid adlanır. İl ərzində müxtəlif ölkələrdə "F1" üzrə mərhələ yarışları, başqa sözlə, qran-prilər təşkil olunur.

Dünyada geniş tamaşaçı auditoriyasına malik bu turnirlər izlənmə sayına görə yalnız Yay Olimpiya Oyunlarından və futbol üzrə dünya çempionatından geri qalır. Daha çox sürət həvəskarlarının maraq dairəsində olan "Formula-1" Qran-priləri ilk vaxtlar ancaq Avropa ölkələrində keçirilsə də, hazırda dünyanı əhatə edir.

Yarışları FIA (Beynəlxalq Avtomobil Federasiyası) keçirir. 1904-cü ildə Parisdə yaradılan federasiya avtomobil idmanı üzrə təşkil olunan bütün növ yarış və tədbirlərə cavabdehdir.




"Formula-1" üzrə ilk rəsmi dünya çempionatı isə 1950-ci il mayın 13-də İngiltərənin Silverstoun trekində təşkil olunub. Britaniya kral ailəsinin də maraqla izlədiyi turnirdə 21 bolid qələbə uğrunda mübarizə aparıb. Həm təsnifat, həm də əsas mərhələdə finiş xəttinə birinci gələn "Alfa Romeo"nun italiyalı pilotu Cüzeppe Nino Farina "F1" yarışının ilk qalibi kimi tarixə düşüb. Birincilik uğrunda mübarizədə onun əsas rəqibi komanda yoldaşı, argentinalı Xuan Manuel Fanxio olub. Lakin sonralar X.M.Fanxio bu məğlubiyyətin əvəzini yetərincə çıxdı. Belə ki, o, karyerası ərzində 5 dəfə (1951-ci, 1954-cü, 1955-ci, 1956-cı və 1957-ci illərdə) dünya çempionu adını qazanmaqla rəqiblərinə aman verməyib.

### Bakı yeniliyin tətbiqi ilə yaddaşlara yazılıb

"Formula-1" yarışlarında Bakı yeniliyin tətbiqi ilə də yaddaşlara həkk olunub. Xatırladaq ki, 2016-cı ildəki dünya çempionatında "F1" Bakı mərhələsində sıralama turları ilə bağlı yenilik etmişdi. Belə ki, əvvəlki qaydalara görə, 18 dəqiqə davam edən birinci və 15 dəqiqəlik ikinci seansların nəticələrinə əsasən ən pis nəticə göstərən 6 pilot mübarizədən kənarlaşdırılmışdı. 10 pilot isə 12 dəqiqəlik üçüncü seansdakı göstəricilərə görə yarışa start vermişdilər. Bakı mərhələsində tətbiq edilən yeni qaydalarda isə seansın sonunda yox, 90 saniyədən bir ən yavaş pilotun mübarizəni dayandırması nəzərdə tutulmuşdu.

Məhz Bakıdakı yenilik son 3 mövsümdür "Formula-1" mütəxəssislərinin rəylərinə görə, yarışlarda həyəcanı bir qədər də artırıb.

### Salam, Bakı

Aprelin 26-dan etibarən Azərbaycan Qran-prisi ilə bağlı Bakıya gələn hər kəs ölkəmizin inkişafını, xalqımızın qonaqpərvərliyini, zəngin mədəniyyətini növbəti dəfə öz gözləri ilə görəcəklər. Onlar Azərbaycanda keçirilən sürət yarışına hazırlıq işlərinin çox yüksək səviyyədə aparıldığının növbəti dəfə şahidinə çevriləcəklər.

Azneft meydanından Dəniz vağzalına qədər bütün Dənizkənarı Milli Park ərazisində əyləncə zonaları fəaliyyətə başlayacaq. Həmçinin azarkeşlər üçün pit yolu gəzintisi təşkil olunacaq. Bununla onlar "Formula-1" aləminə daha da yaxınlaşacaqlar. Gəzinti zamanı azarkeşlər pit yolunu keçərək komandaların yarışa hazırlığına şahidlik edəcək, pit-stop əməliyyatlarını öz gözləri ilə görəcəklər. İzləyicilər komandaların qarajlarında dünyanın ən innovativ yarış avtomobillərinin mühəndis və mexaniklər tərəfindən necə sazlanması prosesinin şahidi olacaqlar.

Bayram ab-havasına bürünmüş Bakıda sürət və adrenalin həvəskarları simulyatorlarda test edərək özlərini əsl "F1" sürücüsü yerində görə biləcəklər. Azarkeşlər bu oyunlarda sanki Azərbaycan Qran-prisinin bir hissəsinə çevrilərək bu mötəbər yarışın həyəcanını yaşayacaq, onun adrenalinini hiss edəcəklər.

### Sürətsevərlərin pilotlar ilə görüşləri

"Formula-1"in Azərbaycan nümunəsi yüksək səviyyədə hazırlıq, qonaqpərvərlik ilə dünyanı heyran etməklə yanaşı, paytaxtımızda yarışan ən məşhur pilotların qəlbində hər zaman dostluq, anlaşma, sevgi məşəli yandırıb. Bu dəfə də Bakı bulvarının əsas səhnəsində 3 gün ərzində sürətsevərlər öz qəhrəmanları - "McLaren", "Haas", "Williams", "Red Bull Racing", "Ferrari", "Mercedes", "Renault", "Toro Rosso", "Alfa Romeo Racing" və s. komandaların pilotları ilə avtoqraf sessiyalarında görüşəcəklər. Bu, azarkeşlər üçün növbəti dəfə əsl hədiyyə olacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

- Azərbaycan Qran-prisi cari mövsümün 4-cü mərhələsi olacaq;
- 500 milyondan çox insan Azərbaycanı izləyəcək;
- Bakı Şəhər Halqasında 9 yerdə tribuna quraşdırılacaq;
- Azərbaycan Qran-prisi İngiltərənin məşhur "The Times" və "The Guardian" nəşrləri kimi dünyanın aparıcı KİV-i tərəfindən "2018-ci ilin ən yaxşı yarışı" adlandırılıb;
- "Formula One Management" şirkətinin statistik rəqəmlərinə əsasən, izləyicilərin 76 faizi Bakı yarışından zövq alıb;
- Azərbaycan Qran-prisi 20 müxtəlif çətinlikli döngəsi və 6 kilometrlik uzunluğu ilə 51 dövrədə tamamlanacaq;
- "Toro Rosso" komandasının sabiq sürücüsü Brendon Hartli bu ildən etibarən "Ferrari"nin simulyatorunda işləyəcək;
- Kari Hotakaynen tərəfindən yazılan və pilot Kimi Rəykkönenin tərcüməyi-halından bəhs edən kitab Finlandiyada satış rekordlarını (200 min ədəd) qırıb;
- "Sauber" komandasının adı bu ildən dəyişdirilərək "Alfa Romeo Racing" adlanacaq;
- "Alfa Romeo Racing" komandasının büdcəsi 250 milyon avroyadək artırılıb;
- "Formula-1" üzrə yeddiqat dünya çempionu Mixael Şumaxerin oğlu Mik Şumaxer rəsmən "Ferrari"nin gənc sürücü proqramına qatılıb.

# "Qəhrəmanlar unudulmur" adlı tədbir keçirilib

Bakı Ali Neft Məktəbi (BANM) və "Zəfər Şəhid Ailələrinə Dəstək" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Qəhrəmanlar unudulmur" adlı tədbir keçirilib.









BANM-ın konqres zalında keçirilən tədbirdə Milli Məclisin deputatları, müxtəlif dövlət qurumlarının rəhbər nümayəndələri, şəhid ailələri, ali məktəbin rəhbərliyi, professor-müəllim heyəti, tələbələri və media nümayəndələri iştirak ediblər. Konqres zalının foyesində 2016-cı il Aprel şəhidlərinin şəkillərindən ibarət sərginin nümayişi də olub.

Öncə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Daha sonra doğma vətənin ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən BANM-ın rektoru Elmar Qasımov bildirib ki, vətən uğrunda canlarından keçən şəhid oğullarımızın əziz xatirəsini yad etmək hər bir Azərbaycan vətəndaşının borcudur. Rektor qeyd edib ki, 2016-ci il Aprel döyüşləri sübut etdi ki Azərbaycan Ordusunun gücü və vətənpərvərlik ruhu çox yüksəkdir. "Biz doğma vətən torpaqlarını düşmən tapdaqlarından azad etmək üçün vuruşan və canından keçən milli qəhrəmanlarımızı hər zaman təbliğ etməliyik. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəhid ailələrinə verdiyi dəstək və diqqətdən ibrət alaraq hər birimiz onların yanında olmalıyıq", - deyə rektor Elmar Qasımov bildirib.

"Zəfər Şəhid Ailələrinə Dəstək" İctimai Birliyinin sədri Sevinc Əlizadə çıxış edərək qeyd edib ki, onun başçılıq etdiyi birlik bütün şəhid ailələrinin təşkilatıdır. O öz çıxışında zalda əyləşən gəncləri şəhid ailələrinə dəstək verməyə, onların yanında olmağa səsləyib, müasir gənclərə milli, vətənpərvər ruhda böyümələrini tövsiyə edib.

Tədbirdə həmçinin Azərbaycan Respublikası Milli Məclisinin deputatları Qənirə Paşayeva və Vahid Əhmədov çıxış edərək şəhidlik zirvəsinə ucalan qəhrəman oğulların əziz xatirələrini ehtiramla yad ediblər.

Aprel qazisi, polkovnik-leytenant Elşən Qarayev isə Aprel döyüşlərində baş verən həyəcanlı anlardan, şəhid olmuş vətən oğullarının şücaətindən bəhs edib.

Şəhid ailələrinin timsalında çıxış edən şəhid Əbdülməcid Axundovun anası Ceyran Axundova onlara göstərilən bütün dəstək və qayğı üçün dövlətimizə, həmçinin bu tədbirin təşkilatçılığında əməyi keçən hər kəsə öz təşəkkürünü bildirib, gəncləri vətən uğrunda daim birləşməyə hazır olmağa çağırıb.

Tədbirdə BANM-ın tələbələri vətənpərvərlik ruhunda şeirlər və musiqilər ifa edib. Azərbaycanın tanınmış hərbi diktoru, "Vətənpərvərliyin Təbliğinə Dəstək" İctimai Birliyinin sədri Şəmistan Əlizamanlı isə milli qəhrəmanlar, vətən, əsgər mövzularına həsr olunmuş mahnıları səsləndirib.

***"Azərbaycan"***

# Cəlil Məmmədquluzadənin əsərləri özbək dilində nəşr olunub




Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli dünyanın müxtəlif ölkələrində böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin əsərlərini xarici dillərdə kitab halında nəşr etmək missiyasını həyata keçirir. İndiyədək akademik İsa Həbibbəylinin ideya müəllifliyi və ön sözü ilə Cəlil Məmmədquluzadənin əsərləri Rusiyada, Misir Ərəb Respublikasında, Pakistanda, Litvada, Gürcüstanda, Macarıstanda çap olunmuşdur.

Bu günlərdə akademik İsa Həbibbəylinin ideya müəllifi olduğu "Cəlil Məmmədquluzadənin əsərləri xarici dillərdə" layihəsi üzrə görkəmli yazıçının növbəti kitabı Özbəkistanda çapdan çıxmışdır. Daşkənd şəhərindəki "Mümtaz söz" nəşriyyatında "Poçt qutusu" adı ilə nəşr edilmiş kitabda akademik İsa Həbibbəylinin "Azərbaycan ədəbiyyatı və Cəlil Məmmədquluzadə haqqında bir neçə söz" adlı ön sözündə Azərbaycan ədəbiyyatının çoxəsrlik tarixi, görkəmli yaradıcıları və böyük ənənələrinə dair zəruri elmi məlumatlar özbək oxucularına çatdırılmışdır. Müqəddimədə Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığının əsas məqamları, ədibin Azərbaycan ədəbiyyatına gətirdiyi mühüm yeniliklər və onun adı ilə bağlı olan sənət ənənələri geniş əhatə olunmuşdur.

"Poçt qutusu" kitabında Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" povesti və "Poçt qutusu", "Usta Zeynal", "İranda hürriyyət", "Qurbanəli bəy", "Pirverdinin xoruzu", "Kişmiş oyunu", "Saqqallı uşaq" cəmi 26 hekayəsi özbək dilində təqdim edilmişdir. Qeyd edək ki, bu vaxtadək Özbəkistanda Cəlil Məmmədquluzadənin cəmi 2 hekayəsi çap olunmuşdur.

Cəlil Məmmədquluzadənin povest və hekayələrini özbək dilinə Özbəkistanın görkəmli yazıçısı Usmon Koçkor tərcümə etmişdir. Kitabda eyni zamanda Usmon Koçkorun "Cəlil Məmmədquluzadə" adlı yazısı da özünə yer almışdır.

Kitabda həmçinin tanınmış özbək alimi, filologiya elmləri doktoru, professor Həmidulla Boltaboyevin "Cəlil Məmmədquluzadə və özbək ədəbiyyatı" adlı son sözü də verilmişdir.

"Poçt qutusu" kitabını nəşrin məsul redaktoru, professor Həmidulla Boltaboyev çapa hazırlamışdır. Kitabın redaktoru isə tanınmış publisist Qulu Kəngərlidir.

Cəlil Məmmədquluzadənin "Poçt qutusu" kitabının özbək dilində nəşr edilməsi Azərbaycan-Özbəkistan elmi-ədəbi əlaqələrinin yeni səhifələri kimi mühüm əhəmiyyətə malikdir.

"Poçt qutusu" kitabının Özbəkistanda nəşr edilməsi Cəlil Məmmədquluzadənin anadan olmasının 150 illik yubileyinə qiymətli hədiyyədir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Muxtariyyətin 95 illiyinə layiqli töhfə

Naxçıvan Muxtar Respublikasının muxtariyyətinin 95 illiyinə həsr edilmiş "Naxçıvanda mətbuat tarixi" adlı kitab Almaniyada ingilis dilində işıq üzü görüb.




"Şərq qapısı" qəzetinin materialları əsasında hazırlanmış kitabın müəllifi Naxçıvan Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Seyid Surədir.

Kitabda Azərbaycanın ayrılmaz parçası kimi təqdim edilən Naxçıvanın tarixindən, zənginliyindən və mədəniyyətindən geniş söz açılıb.

Bildirək ki, müəllifin Naxçıvan mətbuat tarixinə dair 20-dən çox elmi məqaləsi, 1 monoqrafiya və dərs vəsaiti də çap olunub.

Qeyd edilən kitab Lambert akademik nəşriyyat evi (LAP- Lambert Academic Publishing House) tərəfindən nəşr edilib. Kitabların, elmi tədqiqatların alman, ingilis, türk, ərəb və rus dillərində onlayn və çap şəklində yayımını həyata keçirən bu nəşriyyat evinin köməyi ilə hər bir kitabın beynəlxalq kodu (ISBN-International Standart Book Number) mövcuddur. Burada nəşr olunan hər bir kitab bir çox beynəlxalq kataloqlara daxil edilməklə Amerika və Avropanın topdan satan kitab saytlarında yayımlanır. Kitablar www.morebooks.de, www.amazon.de, www.amazon.co.uk, www.amazon.com və digər veb saytlar vasitəsilə bütün dünyada satılmaqdadır.

Nəzərinizə çatdıraq ki, Azərbaycanın ayrılmaz parçası olan Naxçıvanla bağlı elmi araşdırmaların və kitabların beynəlxalq aləmə çıxışını təmin etmək və yaymaq Naxçıvanla bağlı həqiqətlərin dünya miqyasında tanınması baxımından əhəmiyyətlidir.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***


# "Azərişıq" ASC müxtəlif mal-materialların satın alınması məqsədilə açıq tender elan edir

Tender 3 (üç) LOT üzrə keçirilir:

LOT-1 Müxtəlif elektrik mallarının satın alınması - 400 manat

LOT-2 "ASAN xidmət " mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan mal-materialların satın alınması - 400 manat

LOT-3 Avtomobil ehtiyat hissələrinin satın alınması - 400 manat

Azərişıq ASC
Hesab No: AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab No: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesabına köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93, daxili (23-32)).

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 19 mart 2019-cu il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 03 aprel 2019-cu il saat 16-00-a qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 04 aprel 2019-cu il tarixdə saat 16-00-da Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***Tender komissiyası***



# Cəlil Məmmədquluzadə -150

# Sizi deyib gəlmişəm...



● Böyük demokrat

> "Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda, o, bizim müasirimizdir, o, bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər Azərbaycanın müstəqilliyinə sevinir və bizimlə bərabər Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə, qoyduğu mənəvi irslə çalışmaqdadır. Əsrimizin əvvəlində fəaliyyətə başlayan Cəlil Məmmədquluzadə bu gün, əsrimizin sonunda bizim üçün mənəviyyat mənbəyidir, mənəvi dayaqdır".
>
> **Heydər ƏLİYEV**




**Ulu öndər qədim və zəngin ənənələrə malik olan Azərbaycan ədəbiyyatına, klassik irsimizə daim diqqət və qayğı ilə yanaşmışdır. Uzun illər Azərbaycana rəhbərlik edən Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə ardıcıl olaraq ədəbiyyat, mədəniyyət və incəsənət məsələlərini diqqət mərkəzində saxlamışdır. Bütün varlığı ilə xalqına bağlı olan bu fenomen şəxsiyyət Azərbaycanı dünyanın inkişaf etmiş dövlətləri sırasında görməkdən qürur duymuş və ən mütərəqqi ənənələrdən layiqincə bəhrələnməyi məqbul hesab etmişdir. Bildirmişdir ki, xalqımız qədim xalqdır, böyük tarixə, böyük mədəniyyətə malik olan xalqdır. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu insanlarımıza nə qədər dərindən çatdıra bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik, həqiqi vətəndaşlıq, azərbaycançılıq hissini yüksəldərik.**

# Heydər Əliyev və Cəlil Məmmədquluzadə irsi

Məhz bu prinsiplərə sadiq qalan Heydər Əliyev klassik irsə, varislik ənənələrinə diqqət və qayğı ilə yanaşmış, müxtəlif vaxtlarda Azərbaycan xalqının taleyində ədəbiyyat, mədəniyyət və incəsənətində dərin izlər qoymuş Nizami, Nəsimi, Füzuli, Vaqif, M.F.Axundzadə, H.Cavid, Ü.Hacıbəyli, S.Vurğun və digər görkəmli sənətkarların yubileylərinin keçirilməsi, əsərlərinin nəşri və tədqiqi, xatirələrinin əbədiləşdirilməsi istiqamətində mühüm və böyük işlər görmüşdür.

Görkəmli dövlət xadiminin Azərbaycan mədəniyyəti və ədəbiyyatı tarixində dərin izlər qoyan Üzeyir Hacıbəyli, Nəriman Nərimanov, Səməd Vurğun, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə və başqalarının ev-muzeylərinin yaradılmasındakı şəxsi təşəbbüsü onun milli dəyərlərimizə verdiyi ən böyük qiymətin bariz nümunəsidir. Ulu öndərin yüksək dəyər verdiyi sənətkarlardan biri də yazıçı, dramaturq və publisist Cəlil Məmmədquluzadədir. "Cəlil Məmmədquluzadə yaradıcılığı elə bir dəryadır ki, o dəryanın dibinə gedib çatmaq, hamısını əhatə etmək mümkün deyildir" deyən Heydər Əliyev 1994-cü ilin dekabrında ədibin ev-muzeyinin açılışında unudulmaz sənətkarın xatirəsinə böyük ehtiram göstərərək yazıçıya olan yüksək münasibətin bütövlükdə Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə olan sevgidən qaynaqlandığını nəzərə çatdırdı: "Bu gün Azərbaycanın həyatında böyük bir hadisə baş verir. Azərbaycan xalqının böyük yazıçısı, maarifçisi, ictimai xadimi Cəlil Məmmədquluzadənin ev-muzeyi açılır. Bakı şəhərində yeni mədəniyyət ocağı, Mirzə Cəlil ocağı fəaliyyətə başlayır. Bu, Cəlil Məmmədquluzadə yaradıcılığına, onun ədəbi-mədəni irsinə, onun xalqımızın tarixinə əvəzsiz xidmətlərinə verilən yüksək qiymətin rəmzidir. Şübhə yoxdur ki, muzey Mirzə Cəlil dühasının təbliğinə faydalı xidmət edəcəkdir. Xalqımızın mənəvi saflaşmaq yolunda, müstəqillik yolunda mübarizəsinə kömək edəcəkdir" *(Cəlil Məmmədquluzadənin ev-muzeyinin fəxri qonaqlar kitabına ürək sözləri. Heydər Əliyev, Azərbaycan Respublikası Prezidenti, 28 dekabr 1994-cü il).*

Realist Azərbaycan nəsrinin görkəmli nümayəndəsi olan Cəlil Məmmədquluzadə yaradıcılığı, onun redaktoru və naşiri olduğu "Molla Nəsrəddin" jurnalı çağdaş dövrümüzdə də öz müasirliyini, aktuallığını qoruyub saxlamaqdadır. Böyük ideallar naminə mübarizə aparan Mirzə Cəlil irsi, onun azad və müstəqil vətən sevgisi, bir əsr öncə ana yurdunu xoşbəxt görmək istəyi yazıçını bu gün də bizim müasirimiz adlandırmağa əsas verir. Ədibin Azərbaycan xalqı üçün gördüyü təmənnasız işləri, qoyub getdiyi ölməz ədəbi irsi milli ideologiyamızın tərkib hissəsi hesab edən Heydər Əliyev onun vətəndaşlıq cəsarətini yüksək dəyərləndirir: "Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətlərini, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyamızın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir. O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi" *(Heydər Əliyev. Böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illiyinə həsr edilmiş yubiley gecəsində nitq. 28 dekabr 1994-cü il).*

Ədəbiyyatımızın və mədəniyyətimizin təəssübkeşi kimi bütün mənalı ömrünü Azərbaycanın müstəqil dövlət kimi dünya arealında özünəməxsus yer tutmasına, tərəqqisinə sərf edən ulu öndər ənənəvi olaraq ədəbiyyat, mədəniyyət və incəsənət xadimlərimizin yubileylərinin keçirilməsinə, ədəbi irsinin qorunması və təbliğinə xüsusi önəm vermişdir. Bu baxımdan Heydər Əliyevin realist sənətkarımız Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illiyi münasibətilə keçirilən təntənəli gecədəki dərin məzmunlu nitqi Mirzə Cəlil irsinin timsalında həm də Azərbaycan ədəbiyyatına verilən əvəzsiz bir qiymətdir.

Ulu öndər dərin məzmunlu nitqində Cəlil Məmmədquluzadə yaradıcılığının bir çox məqamlarına diqqət çəkmiş, onun çoxşaxəli, zəngin irsi haqqında özünün fikir və mülahizələrini nəzərə çatdırmış və ədibin müasir ədəbiyyatımıza təsir dairəsinə önəm vermişdir. Ümummilli lider uzaqgörənliklə yazıçının "Anamın kitabı" pyesini "Azərbaycan üçün çox dahiyanə əsər" kimi dəyərləndirir, orada qaldırılan problemlərin bu gün də böyük aktuallıq kəsb etdiyini vurğulayır. Böyük dövlət xadimi əsərin əhəmiyyətindən bəhs edərkən Cəlil Məmmədquluzadənin bütün yaradıcılığı boyu ana dilimizin saflığı, təmizliyi uğrunda apardığı ardıcıl və prinsipial mübarizəni və bu yolda yazıçının fədakarlığını, vətənpərvərliyini yüksək qiymətləndirir. Əsərdə müəllifin ayrı-ayrı xalqların dilinə və mədəniyyətinə meyiletmə tendensiyası və kökdən, mənəvi varislikdən uzaqlaşma kimi mənfi hallara qarşı barışmaz mövqe tutduğuna diqqət çəkən ulu öndər "Azərbaycan dilini, Azərbaycan milliliyini, milli şüurunu, milli məfkurəsini yaşatmaq" məsələlərini xüsusi vurğulayaraq Mirzə Cəlilin bu istiqamətdəki cahanşümul xidmətlərini bir daha təsdiqləyirdi: "Cəlil Məmmədquluzadənin fəaliyyətində ən dəyərli cəhətlərdən biri də Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdiyi xidmətlərdi".

Onun daim işlətdiyi "Vətən, vətən, vətən! Millət, millət, millət! Dil, dil, dil!" sözləri xalqımızın, millətimizin arzularını ifadə edir. Ədibin ana dilinə - Azərbaycan dilinə böyük diqqəti, ana dilini təbliğ etməsi, insanların hamısını ana dilini bilməyə səsləməsi və ana dilinin, Azərbaycan dilinin hər yerdə hökm sürməsinin zəruriliyinə dair fikirləri, yazıları o vaxt üçün vacib idi, bu gün üçün də çox aktualdır".

Azərbaycançılıq ideyasını özündə ehtiva edən bu möhtəşəm əsər öz müasirliyi ilə çağdaş dövrümüzdə də xalqı milli birliyə, soykökə və zəngin dilimizi qorumağa səsləyən qiymətli bir xəzinə kimi ulu öndərin də diqqət mərkəzində olmuşdur.

Böyük dövlət xadimi Heydər Əliyev Cəlil Məmmədquluzadənin yubiley gecəsində onun yaradıcılığında xüsusi yer tutan "Ölülər" tragikomediyası haqqında da yüksək fikirlər söyləmiş, bir əsrdən artıq səhnə ömrü yaşayan bu fundamental əsər barədə dərin fəlsəfi fikirlərini açıqlamışdır. Ulu öndər əsərin böyük məziyyətlərindən bəhs edərək bildirmişdir ki, bəzən "Ölülər"i din əleyhinə yönəldilmiş bir əsər kimi qələmə verməyə çalışanlar da olmuşdur. Lakin Mirzə Cəlil bu əsəri yazarkən heç də dinə qarşı çıxmamış, əksinə, islam dininin böyük mənəvi dəyərlərini xalqa çatdırmağa çalışmışdır. Bəzən məsələnin əsl mahiyyətini anlamayanlar yazıçının əsas məqsədini təhrif etməyə çalışmış, bununla da bəzi qaragüruh insanları Mirzə Cəlilə qarşı müxalif mövqedə dayanmağa təhrik etmişlər. Əslində isə yazıçının böyüklüyü ondadır ki, o, dindən bir alət kimi istifadə edən yalançı və fırıldaqçı fanatikləri ifşa edərək ciddi ittihamla üz-üzə qoymuşdur. O dövrdən xeyli zaman keçməsinə baxmayaraq, əsərin bu gün də Azərbaycan səhnəsində uğurla tamaşaya qoyulması və maraqla qarşılanması bir daha bu monumental tragikomediyanın müasir dövrümüzdə də böyük əhəmiyyətə malik olduğunu göstərməkdədir. Ümummilli lider öz nitqində "Ölülər" əsərinə xüsusi önəm verərək demişdir: "Mən tam cəsarətlə deyə bilərəm ki, dünya ədəbiyyatında buna bərabər, buna bənzər ikinci əsər tapmaq mümkün deyildir. Bu əsər Cəlil Məmmədquluzadənin həm nə qədər böyük filosof, psixoloq olduğunu göstərir, həm də onun yalnız özünəməxsus yaradıcılıq üslubunu və özünəməxsus fitri istedadını əks etdirir. "Ölülər" əsərindən uzun müddət din əleyhinə təbliğatda istifadə edilmiş və çox hallarda o, din əleyhinə yazılan bir əsər kimi qəbul olunmuşdur. Ancaq Mirzə Cəlil bu əsəri yaradarkən heç də dinə müxalif çıxmamış, əksinə, bu əsərdə islam dininin xalqımız üçün nə qədər böyük mənəvi dəyər olduğunu sübut etməyə çalışmışdır. Eyni zamanda, o, dini təhrif edənləri, dindən istifadə edib fırıldaqçılıqla məşğul olanları ifşa edərək tənqid atəşinə tutmuşdur".

Cəlil Məmmədquluzadə bütün yaradıcılığı boyu öz satirik felyetonlarında, məqalələrində, hekayə və dram əsərlərində dönə-dönə dini məsələlərdən gəlir mənbəyi kimi istifadə edən yalançı din mübəlliğlərindən bəhs etmiş, onların xalqı cəhalət və geriliyə, mövhumata sürükləməsini satira atəşinə tutmuşdur. Buna görə də XX əsr klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mirzə Cəlil yaradıcılığına, xüsusilə də onun məşhur "Ölülər" əsərinə müxtəlif və ziddiyyətli münasibətlər olmuşdur. Lakin zaman keçdikcə əsər öz layiqli qiymətini almışdır. Ədəbiyyatımızın hamisi olan Heydər Əliyev əsərin böyük tarixi əhəmiyyətindən bəhs edərək diqqəti əsas faktorlara yönəldir. "Ölülər" əsərinin ikinci mühüm cəhəti ondan ibarətdir ki, orada təkcə dindən istifadə edib fırıldaqla məşğul olanlar ifşa edilmir, həm də insanların mənəviyyatının nə qədər əhəmiyyətli olduğu açıq-aşkar göstərilir. Təəssuf ki, mənəviyyatda çatışmazlıq, mənəviyyatda gerilik bizi bu gün də sıxır. Mənəviyyatımızda ayrı-ayrı qrupların mənfi hərəkətləri cəmiyyətimizi, xalqımızı incidir. Biz "Ölülər" əsərindən dərs götürməliyik... O, böyük bir fəlsəfi əsər kimi bizə bu gün də lazımdır".

Cəlil Məmmədquluzadə Azərbaycanda və dünyada baş verən mühüm ictimai-siyasi hadisələrə bir vətənpərvər ziyalı kimi mövqeyini bildirmiş, cəmiyyətdə demokratikləşmə meyillərini dəstəkləmiş, xalqların öz müqəddəratını təyin etmək hüququnu və azadlıq uğrunda mübarizəsini dərin məzmunlu əsərlərində əks etdirmişdir. Yazıçılıqla bərabər, həm də ictimai-siyasi xadim kimi ömrü boyu xalqına xidmət göstərən Mirzə Cəlilin fəaliyyətinin bu istiqaməti onun məşhur "Cümhuriyyət" məqaləsində həllini tapır: "Cümhuriyyət elə bir hökumətə deyirlər ki, orada məmləkətin idarəsi camaatın, xalqın öz öhdəsində və ixtiyarındadır və vicdan azadlığı, yığıncaq azadlığı, birlik azadlığı, söz azadlığı, siyasi firqələr düzəltmək azadlığı, şəxsiyyət azadlığı, qanun qarşısında bərabərlik, seçki üsulunda həmrəylik, bərabərlik və müstəqillik, gizli səsvermə prinsipləri cümhuriyyət quruluşunda əsas olmalıdır" *(Cəlil Məmmədquluzadə. Əsərləri. 4-cü cild. Bakı, 2004).*

Mirzə Cəlilin bu tarixi əhəmiyyətli məqaləsini yada salan Heydər Əliyev demokratik ədibin dövlətçilik haqqında dəyərli fikirlərini yüksək qiymətləndirir, onu humanizm prinsiplərinin fövqündə dayanan ziyalı hesab etməklə müasirimiz adlandırır: "Biz bu gün bu prinsiplər əsasında demokratik hüquqi dövlət yaratmaq istəyirik. Cəlil Məmmədquluzadə böyük demokrat olubdur, Azərbaycan dövlətçiliyi üçün səylər göstəribdir. Bizə böyük miras, irs qoyub gedibdir. Bunların hamısını biz yüksək qiymətləndirməliyik. Bax, bunlara görə də Cəlil Məmmədquluzadə daim bizimlədir".

Bu gün ümummilli lider Heydər Əliyevin siyasi kursu layiqincə davam etdirilir. Mirzə Cəlil irsi yenə də diqqət mərkəzindədir. Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamına uyğun olaraq Cəlil Məmmədquluzadənin "Əsərləri" dörd clddə nəşr olunmuşdur. 2006-cı ildə "Molla Nəsrəddin" jurnalının nəşrə başlamasının 100, 2016-cı ildə 110 illiyi və 2019-cu ildə C.Məmmədquluzadənin 150 illik yubileyinin keçirilməsi barədə Prezident sərəncamı ulu öndərin böyük siyasətinin uğurlu davamıdır.

Dahi siyasətçinin Cəlil Məmmədquluzadə irsinə münasibətini müdrik rəhbərimizin öz sözləri ilə yekunlaşdırmaq yerinə düşərdi: "Cəlil Məmmədquluzadə dühası "Molla Nəsrəddin" jurnalında öz əksini tapdı. "Molla Nəsrəddin", onun vasitəsilə Cəlil Məmmədquluzadə və jurnalın işinə cəlb olunmuş Azərbaycanın başqa mütəfəkkir adamları xalqımızın milli şüurunun formalaşmasında, milli ruhunun yüksəldilməsində, milli oyanışında böyük rol oynadılar".

***Gülbəniz BABAYEVA,***
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru***

● Ev muzeyi

# Qoşa çinar

**XX əsr Azərbaycan ədəbiyyatının ən qüdrətli nümayəndələrindən olan böyük yazıçı, istedadlı publisist, nüfuzlu mütəfəkkir və görkəmli ictimai xadim Cəlil Məmmədquluzadənin anadan olmasının 150 ili tamam olur. Xalqın böyük oğlu Mirzə Cəlilin yubileyinin yüksək səviyyədə keçirilməsini təmin etmək üçün Prezident İlham Əliyev xüsusi sərəncam imzalamışdır. Yubiley ərəfəsində görkəmli ədibin keşməkeşli ömür yoluna, zəngin yaradıcılığına yenidən nəzər salınır, tarixin maraqlı, eyni zamanda ziddiyyətli məqamları həssaslıqla araşdırılır, yeni və qiymətli faktlar, məlumatlar aşkarlanır.**





Cəlil Məmmədquluzadə mənalı həyatının bir hissəsini Kəhrizli kəndində yaşamışdır. Tale elə gətirmişdir ki, Mirzə Cəlil Tiflisdə tarixçi Əhməd bəy Cavanşirin qızı, maarifpərvər və xeyriyyəçi Azərbaycan qadını Həmidə xanımla tanış olur. Nə xoş ki, bu təsadüfi tanışlıq səmimi və mehriban bir ailənin qurulması ilə nəticələnir. Beləcə, Mirzə Cəlil Həmidə xanımın simasında qayğıkeş ömür-gün yoldaşı, öz maddi imkanlarını böyük ədibin sağlamlığına və zəngin yaradıcılığına səxavətlə xərcləyən cəfakeş və etibarlı dost qazanır. Mirzə Cəlil həyatının Kəhrizli dövrünü sonralar xoş və kövrək duyğularla xatırlayır.

Azərbaycanın görkəmli qadınlarından söz düşəndə Həmidə xanımın parlaq obrazı göz önündə canlanır. Həmidə xanım Məmmədquluzadə bütün şüurlu həyatını, mənalı ömrünü sonsuz məhəbbətlə sevdiyi, uğrunda misilsiz çətinliklərə, saysız-hesabsız əziyyətlərə tablaşdığı doğma xalqının maariflənməsinə, böyük xeyriyyəçilik işlərinə həsr etmişdir.

O, 1873-cü il yanvarın 19-da Şuşa qəzasının Kəhrizli kəndində Qarabağ xanı Pənahəli xan Cavanşirin nəticəsi Əhməd bəy ocağında dünyaya göz açmışdır. Mənsub olduğu nəslin yüksək əxlaqi-mənəvi keyfiyyətləri Həmidə xanımın bütöv şəxsiyyət, sözün tam mənasında bir əsilzadə kimi formalaşmasında həlledici rol oynamışdır. İlk təhsilini ailə məktəbində alan Həmidə xanım yeniyetmə yaşında rus dilini öyrənir. Malik olduğu yüksək intellektual səviyyə, geniş dünyagörüşü onu dövrün qadınlarından kəskin şəkildə fərqləndirirdi.

İlk həyat yoldaşı zədəgan nəslindən olan İbrahim bəy Davıtdarov cəbhədə həlak olandan sonra Həmidə xanım doğma Kəhrizli kəndində ata mülkünü idarə etməyə başlayır. Orada ilk qadın məktəbi açır, toxuculuq emalatxanası yaradır, öz vəsaiti hesabına qazdığı kəhrizlə böyük bir ərazidə torpaqların suvarılmasını təmin edir. Bu, ağır şəraitdə yaşayan həmkəndlilərinə Həmidə xanımın həyati əhəmiyyət kəsb edən bir töhfəsiydi. Əsrlər boyu suvarılmayan torpaqlara su verilməsi kəndlilərin üzünü güldürür, zəhmətinin bəhrəsini birə-min edirdi.

## Xeyirxahlıq mələyi

Mirzə Cəlillə birlikdə açdığı məktəbdə dərs deyən Həmidə xanım o dövrdə geniş yayılan yoluxucu xəstəliklərə qarşı peyvənd etməyi, xəstəliyə yoluxmuş həmkəndlilərinə yardım göstərməyi öyrənir, insanları müalicə də edirdi.

Həmidə xanım o dövrün yardıma ehtiyacı olan ziyalılarına da təmənnasız kömək göstərirdi. Böyük xeyriyyəçi xanım tək Kəhrizli üçün deyil, ətraf kəndlərdən gələn imkansız adamlara da səxavətlə əl tutar, onları naümid qoymazdı.

Böyük ədibin köməyi və ağıllı məsləhətləri ilə ata mülkünü bacarıqla idarə edən Həmidə xanım ədəbi-bədii yaradıcılıqla da məşğul olurdu. Atası Əhməd bəy Cavanşir o dövrün tanınan ziyalılarından idi. Əhməd bəyin yazdığı "Qarabağ xanlığının siyasi vəziyyətinə dair" əsəri o zaman böyük şöhrət qazanmışdı. Sonralar Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilən Həmidə xanım bir çox Azərbaycan yazıçılarının əsərlərini rus dilinə tərcümə etmiş, M.Ə.Sabir haqqında maraqlı məlumatlarla zəngin xatirələrini qələmə almışdır.

Hər kəsə məlumdur ki, Cəlil Məmmədquluzadənin həyatı çətinliklərlə, əzab-əziyyətlərlə dolu olmuşdur. Sədaqətli ömür-gün yoldaşı, etibarlı dost olan Həmidə xanım hər zaman böyük ədibin qayğılarını çəkmiş, ağrı-acılarını paylaşmış, yaşayıb-yaratması üçün ona maddi və mənəvi köməyini əsirgəməmişdir.

## Məhəbbət və ehtiramın ünvanı

Qədirbilən xalqımız Cəlil Məmmədquluzadənin anadan olmasının 150 illiyini böyük məhəbbət və ehtiramla qeyd etdiyi bir məqamda onun ömür-gün yoldaşını xatırlamaq, dövrünün xeyirxahlıq mələyi kimi şöhrət qazanmış Həmidə xanım haqqında danışmaq son dərəcə təbii bir istəkdir. Həmidə xanımın unudulması mümkün olmayan xeyirxahlıqları həmişə ehtiramla, minnətdarlıqla xatırlanır. Ağcabədi rayonunun Kəhrizli kəndindəki mülk indi Həmidə xanımın ev-muzeyinə çevrilmişdir. Bu müqəddəs ünvan hər zaman insanların ümid yeri olub. Hələ sovetlər dövründə bu evdə əvvəlcə orta məktəb, sonra musiqi məktəbi fəaliyyət göstərib. 1990-cı illərin əvvəllərində mənfur qonşularımız Qarabağı işğal edib, kəndlərimizi, şəhərlərimizi odlara qalayıb viran qoyanda isti yuvasından, doğma ev-eşiyindən perik salınan soydaşlarımız respublikamızın hər yerinə səpələndilər. Bir neçə məcburi köçkün ailəsi isə Həmidə xanımın evində məskunlaşdı.

Dövlətin qayğısı ilə qaçqın və məcburi köçkünlər üçün çox sayda yeni qəsəbələr salındı. Həmidə xanımın evində yaşayan məcburi köçkünlərə də yeni mənzillər verildi. Beləcə Həmidə xanımın ev-muzeyini yaratmaq üçün gözlənilən əlverişli məqam gəlib yetişdi. Bina əsaslı şəkildə təmir edilib bərpa olundu. Maraqlı eksponatlar toplandı. Həyət-bacada səliqə-sahman yaradıldı. Muzeyin direktoru Zeynəb Quliyeva deyir ki, ev-muzeyin ümumi sahəsi 360 kvadratmetrdir. Ekspozisiya-sərgi sahəsi isə 120 kvadratmetri əhatə edir. Dörd ekspozisiya salonunda ümumilikdə 200-dən çox eksponat nümayiş etdirilir. Muzeydə Həmidə xanımın həyat və fəaliyyətini əks etdirən fotolar, əl işləri, tikmələr, məişət əşyaları, divar saatı, kömür ütüsü, güldan, qablar, əlyazmalar, xatirə albomu, kitablar, qəzet-jurnallar saxlanılır.

Muzeyin qarşısında məğrur görkəmi ilə diqqət çəkən iki çinar çiyin-çiyinə verib. Bu qoşa çinara baxanda xalqımızın iki şərəfli övladı - ədib C.Məmmədquluzadə və onun ömür-gün yoldaşı, Azərbaycanın maarifpərvər qadını Həmidə xanım göz önündə canlanır. Onlar şüurlu həyatlarını həsr etdikləri xalqın qəlbində əbədi yaşayacaqlar. Həmişə olduğu kimi - məhəbbət və ehtiramla!

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

● Felyeton



## Nişanlı bir qız

*Müzlim gecədə nişanlı bir qız*
*Bir hüznü ələm içində yalqız.*
*Yatmaz, uyumaz o qəmli düxtər,*
*Zanularını qucub mükəddər,*
*Barmaqda nişan üzüklə iştə*
*Oynar, edər ah ol firiştə.*
*Fəryadla qəmli-qəmli ağlar,*
*Hər naləsi kainatı dağlar.*

Nişanlı qız ağlaya-ağlaya deyir ki, "ey mənim qara bəxtim, nə olardı ki, mən olaydım Firəngistan şəhərlərinin birində, atamın adı olaydı Fridrix, anamın adı olaydı Avqustina, mənim adım olaydı Mariya. Nə olardı ki, dünyanı işıqlandıran günün üzünə hərdənbir baxmış olaydım və atam-anam məni qoca kişiyə vermək istəyəndə bir söz danışmağa ixtiyarım olaydı. Ey mənim qara bəxtim, nə olardı ki, milyonlarca yazılan kitablardan ikicəciyin oxumuş olaydım və biləydim ki, dünyaya nədən ötrü gəlmişik. Ey mənim qara bəxtim, doğrudur, firəng qızı olsa idim, öləndən sonra yerim cəhənnəmin dib bucağı olacaq idi, amma çifayda ki, indi də öləndən sonra cənnətə gedib görəcəyəm ki, elə hayana istəyirəm gedəm, hayanda istəyirəm oturam, hər yan və hər tərəf doludur keçəl-küçəl məşədi və kərbəlayılar ilə, bitli hacılar ilə və çirkli və tərli çadralı arvadlar ilə.

Ey mənim qara bəxtim!"

***Lağlağı***

## Təsəlli

Aşqabadda uzunsaqqal bir möhtərəm ağa uşağı ölən analara təsəlli verib deyirmiş ki, bu zəmanənin uşaqlarının qalmağından isə ölməkləri çox məsləhətdir.

Kəramətə qurban, kəramətə!

**"Molla Nəsrəddin", 1910, № 2.**



# Bakı Şəhər İcra Hakimiyyəti “Yaşıl Teatr” Bakı Konsert Kompleksi tədbirlərin keçirilməsinin satın alınması məqsədilə

## *açıq tender elan edir*

**LOT -1. 15 iyun 2019-cu il - Milli Qurtuluş Günü ilə əlaqədar tədbirlərin keçirilməsi.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 200 manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Sona Vəlixanlı, 1 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs: Cavadov İlqar Əziz oğlu, tel.: 492-46-34.

**Kapital Bank Səbail filialı**
**Kodu: 200059**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**SWIFT: AİİBAZ2X**
**“Yaşıl Teatr” Bakı Konsert Kompleksi**
**H/H: AZ05AIIB33070019443501623105**
**VÖEN: 1700779931**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflər açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1(bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 15 mart 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə 02 aprel 2019-cu il saat 17:00-a qədər “Yaşıl Teatr” Bakı Konsert Kompleksinə (ünvan: Sona Vəlixanlı küç., 1) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 03 aprel 2019-cu il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

***Tender komissiyası***

# Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti

## *açıq tenderə dəvət edir*

**Tender 2 LOT üzrə keçirilir:**
**LOT 1. Təmizlik təsərrüfat mallarının satın alınması.**
**LOT 2. Elektrik təsərrüfat mallarının satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**LOT 1. 150 (bir yüz əlli) manat (ƏDV xaric) iştirak haqqını**
**LOT 2. 150 (bir yüz əlli ) manat (ƏDV xaric) iştirak haqqını**
sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasından tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**M/H: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **25 mart 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **02 aprel 2019-cu il saat 17:00-a** qədər “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **03 aprel 2019-cu il saat 16:00-da** “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: **Məmmədov Faiq, tel.: (+994 12) 498-39-29.**

***Tender komissiyası***

# Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Şamaxı Suvarma Sistemləri İdarəsi 2019-cu il üçün aşağıdakı maddə üzrə

## *kotirovka sorğusu elan edir*

**1** . 223200

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 20.02.2019-cu il saat 17:00-dək qəbul olunur.
**Əlaqə telefonu: 051-578-76-56, (02026) 5-39-52**
**Əlaqələndirici şəxs: Babayev Əlixan.**

***Tender komissiyası***

# Mingəçevir sakini dövlətə xəyanət cinayətində şübhəli şəxs qismində saxlanılıb

Dövlət Təhlükəsizliyi Xidmətində davam edən istintaq-əməliyyat tədbirləri zamanı Azərbaycan Respublikasının vətəndaşı, Mingəçevir şəhər sakini Ələkbərov Anar Vaqif oğlu dövlətə xəyanət cinayətində şübhəli şəxs qismində saxlanılıb.

Dövlət Təhlükəsizliyi Xidmətinin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, müəyyən olunub ki, Anar Ələkbərov 2016-cı ilin mart ayında xarici ölkə ərazisində xarici xüsusi xidmət orqanları nümayəndələri tərəfindən maddi maraq müqabilində məxfi əməkdaşlığa cəlb edilib. Həmin şəxslər Anar Ələkbərova xaricdə ticarət əlaqələri olan bəzi Azərbaycan vətəndaşları barədə məlumat toplayıb onları müxtəlif işgüzar münasibətlər zəminində xarici xüsusi xidmət orqanlarının əlaqəsinə cəlb etmək, Azərbaycan xüsusi xidmət orqanlarının əməkdaşları və Azərbaycanda fəaliyyət göstərən konkret ölkələrin səfirliklərinin nümayəndələri, Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsi haqqında məlumat toplamaq barədə tapşırıqlar verib. Anar Ələkbərov ötən müddət ərzində bu tapşırıqların yerinə yetirilməsi istiqamətində konkret işlər görüb.

Araşdırmalar zamanı Anar Ələkbərovun Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi maraqlarına zidd olaraq topladığı və gizliliyinin qorunduğunu güman etdiyi mobil internet təminatından istifadə etməklə xarici xüsusi xidmət orqanlarına ötürdüyü məlumatlar əldə edilib, iş üzrə digər çoxsaylı dəlillər toplanılıb. O, cinayət əməllərini etiraf edərək təfərrüatları barədə ətraflı məlumatlar verib. Anar Ələkbərov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə cinayət məsuliyyətinə cəlb olunaraq məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib. Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.


Azercell

## abunəçilərinin nəzərinə

“Azercell Telekom” MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 13.02.2019 tarixdə, gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcəkdir.


*Təkrar*

# “Azərpoçt” MMC tabeli poçt müəssisələrinin təminatı üçün

## *açıq tender elan edir*

Tender 6 (altı) LOT üzrə keçirilir:

**LOT 1.** Parça məhsulların alınması.
**LOT 2.** Ofis avadanlıqlarının alınması.
**LOT 3.** Bankomat avadanlıqlarının alınması.
**LOT 4.** Növbəlik aparatının alınması.
**LOT 5.** Şəbəkə Xidmət mərkəzləri və poct şöbələrində reklam işlərinin alınması.
**LOT 6.** Kondisionerlərin alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanında yerləşən “Azərpoçt” MMC-dən (telefon: 493-56-00) ala bilərlər.

**I LOT üzrə - 100 manat**
**II LOT üzrə - 200 manat**
**III LOT üzrə - 300 manat**
**IV LOT üzrə - 300 manat**
**V LOT üzrə - 150 manat**
**VI LOT üzrə - 100 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**“Azərpoçt” MMC**
**Kod: 690001**
**M/H: AZ76NABZ01350100000000094944**
**VÖEN: 9900037711**
**SWIFT: AZPOAZ 22**
**“Azərpoçt” MMC**
**VÖEN: 9900037711**
**Hesablaşma hesabı: AZ82AZPO99995381000420000125**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərfin açıldığı gündən sonra 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə peşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **28 fevral 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **12 mart 2019-cu il saat 18:00-a** qədər Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri **13 mart 2019-cu il saat 11:00-da** Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# “Azərişıq” ASC Pirallahı rayonu ərazisində yeni 110/35/6 kV-luq 2x40 MVA gücündə “Pirallahı” yarımstansiyasının tikintisi, avadanlıqların quraşdırılması və 110/35/6 kV-luq “Dübəndi” yarımstansiyası ilə -110/35/6 kV-luq “Pirallahı” yarımstansiyası arasında 110 kV-luq ikidövrəli kabel xəttinin çəkilməsi və Xəzər rayonu Binə qəsəbəsində “Binə Aqro” MMC-yə məxsus istixana kompleksinin elektrik təchizatı üzrə işlərin satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir:

**LOT-1.** Pirallahı rayonu ərazisində yeni 110/35/6 kV-luq 2x40 MVA gücündə “Pirallahı” yarımstansiyasının tikintisi, avadanlıqların quraşdırılması və 110/35/6 kV-luq “Dübəndi” yarımstansiyası ilə - 110/35/6 kV-luq “Pirallahı” yarımstansiyası arasında 110 kV-luq ikidövrəli kabel xəttinin çəkilməsi işlərinin satın alınması - **400 manat.**

**LOT-2.** Xəzər rayonu Binə qəsəbəsində “Binə Aqro” MMC-yə məxsus istixana kompleksinin elektrik təchizatı - **400 manat**

**“Azərişıq” ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: Aşəd Ağayev (telefon: 440-39-93; daxili (22-83))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 07 mart 2019-cu il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 18 mart 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 19 mart 2019-cu il tarixdə saat 16:00-da Bakı şəhəri, Ələsgər Qayıbov küçəsi, 8 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

### *Düzəliş*

*Şamaxı Suvarma Sistemləri İdarəsinin 09 fevral 2019-cu il tarixində qəzetdə dərc olunmuş tender elanında sənədlərin son qəbul tarixi 15 mart 2019-cu il saat 17:00, tender təklifi və bank zəmanətinin son qəbul tarixi isə 02 aprel 2019-cu il 17:00-a müəyyən olunmuşdur.*

*Tender komissiyası*

### *Düzəliş*

*“Azərbaycan” qəzetinin 02.02.2019-cu il tarixli sayında dərc olunmuş “Bakı Şəhər İşığı” Elektrik Şəbəkə müəssisəsinin açıq tender elanında sondan 2-ci abzas aşağıdakı kimi oxunmalıdır: Tender proseduru 18.03.2019-cu il saat 16:00-da “Bakı Şəhər İşığı” Elektrik Şəbəkə müəssisəsinin binasında (Binəqədi ray., Biləcəri qəs., Y.Hüseynov, 45) keçiriləcəkdir.*

*Tender komissiyası*

# ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova qardaşı

**ZAKİR MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitənin üzvləri Milli Məclisin deputatı İmamverdi İsmayılova qayınanası

**TAMARA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin kollektivi Milli Məclisin deputatı İmamverdi İsmayılova əzizi

**TAMARA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Milli Məclisin deputatı İmamverdi İsmayılova əzizi

**TAMARA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Milli Məclisin deputatı İmamverdi İsmayılova əzizi

**TAMARA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı İmamverdi İsmayılova əzizi

**TAMARA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İlqar Fərzəliyev ailəsi ilə birlikdə “Azərbaycan” nəşriyyatının baş direktoru Ağabəy Əsgərova bacısı

**PƏRİXANIM MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi universitetin rektoru, professor Ədalət Muradova qardaşı

**ZAKİR MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi “Azərbaycan” nəşriyyatının baş direktoru Ağabəy Əsgərova bacısı

**PƏRİXANIM MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov və universitetin professor-müəllim heyəti Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin sədri Rasim Kazımova atası

**SARI KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə şəhəri 1 saylı Vəkil Bürosunun kollektivi Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin sədri Rasim Kazımova atası

**SARI KAZIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8362
Sifariş 503
Qiyməti 40 qəpik